

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

4 aprel döyüşləri - BÖYÜK ZƏFƏRƏ gedən yolun başlanğıcı



4

№ 054 (6737)

31 mart 2023-cü il.
Qiyməti 60 qəpik

# Yenidən qurulan Laçınımız!



2

**Prezident İlham Əliyev: "Laçınlılar bu il öz doğma diyarına qayıdacaqlar"**

# 31 Mart soyqırımından 105 il ötür...



8

## Formula 1 yarışları turizmə necə təsir edir?




14

## Oruc tutan şəxsə hansı əməllər qadağandır?



16

## Əmək bazarı insanlardan daha çox nə tələb edir?



14



11

## VOMA terror qruplaşması: azyaşlı erməni uşaqları qatil kimi yetişdirilir!

## XX əsrin ən böyük soyqırımı: 105 il əvvələ baxış




15

# Yenidən qurulan Laçınımız!

## Prezident İlham Əliyev: "Laçınlılar bu il öz doğma diyarına qayıdacaqlar"



Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini sürətləndirir. Əlbəttə ki, 30 ilə yaxın işğalda olan torpaqların bərpası, yenidən qurulması vaxt və maliyyə imkanları tələb edir. Bu gün işğaldan azad olunan və üçrəngli bayrağımız dalğalanan ərazilərimizdə müasir infrasturuktur yaradılır. Məlumdur ki, dekabrın 1-i 2020-ci il tarixində Laçın rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu, Azərbaycan Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmış oldu. Azərbaycan Prezidenti İlham Əliyevin 1 dekabr tarixində xalqa müraciətində Laçın rayonunun işğaldan azad olunmasının tarixi hadisə olduğunu bildirmişdi. "Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq" - deyən Cənab Prezident döyüş meydanında əldə edilmiş parlaq qələbənin bu gözəl nəticəyə gətirib çıxardığını və üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçının bizə qaytarıldığını qeyd etmişdi.

Azərbaycan Prezidenti İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbulu zamanı çıxışında "Biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq. İkinci Qarabağ müharibəsi dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifələrdən biri idi və biz faktiki olaraq Laçın rayonunun cənub hissəsini döyüşərək, vuruşaraq azad etdik. Güləbird və digər bir neçə kənd döyüş meydanında azad edilmişdir, biz Laçın-Xankəndi yoluna çıxmışdıq. Məhz bu əməliyyat nəticəsində, eyni zamanda, Şuşa şəhərinin erməni işğalçılarından azad edilməsi faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyasına gətirib çıxarmışdır. Vaxtilə "Qarabağ Ermənistandır"deyən Ermənistan rəhbərliyi öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur və 2020-ci ilin noyabrın 10-da kapitulyasiya aktı Ermənistan tərəfindən imzalandı. Laçın rayonunun digər hissəsi - ən böyük hissə artıq siyasi yollarla azad edilmişdir. Bu, bizim böyük tarixi Zəfərimizdir", - deyə bildirmişdir.

18 may 1992-ci ildə Ermənistan Silahlı Qüvvələri Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Laçın işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Laçın rayonda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, cəmaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb. Onların öz doğulduqları yerə göndərilməsi əsas məsələrdən biridir. Təbii ki, işğaldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb.

### "AXC-MÜSAVAT XƏYANƏTKAR CÜTLÜYÜ LAÇIN İŞĞAL OLUNANDAN BİR AY SONRA HAKİMİYYƏTİ QANUNSUZ YOLLARLA ZƏBT ETMİŞDİR"

Dövlət başçımız Laçının işğalı ölkəmiz üçün böyük faciə idi, laçınlılar üçün böyük faciə idi,- deyərək bunun AXC-Müsavat xəyanətkar cütlüyünün növbəti çirkin xəyanəti olduğunu qeyd etmişdi: "AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, istənilən yollarla hakimiyyəti zəbt etməyə çalışırdı və torpaqların Ermənistana verilməsi, satılması faktiki olaraq onların bu çirkin niyyətə çatmaları üçün bir fürsət idi. Onlar bunu belə qiymətləndirirdilər - hesab edirdilər ki, əgər Azərbaycan xalqı böyük bir sarsıntı keçirərsə, onlar üçün əlavə şanslar yaranacaq. Əfsuslar olsun ki, belə də oldu. Şuşanın, ondan sonra Laçının işğal altına düşməsi Azərbaycanda çox ciddi siyasi böhrana səbəb olmuşdur. Bu imkandan, fürsətdən istifadə edərək AXC-Müsavat xəyanətkar cütlüyü Laçın işğal olunandan bir ay sonra hakimiyyəti qanunsuz yollarla zəbt etmişdir və bu, daha böyük faciələrə yol açdı. Ondan bir il keçməmiş - 1993-cü ilin aprelində Kəlbəcər işğal altına düşdü və beləliklə, ovaxtkı - keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi ilə Ermənistan ərazisi arasında coğrafi bağlantı yaradılmışdır və əlbəttə ki, Birinci Qarabağ müharibəsindəki məğlubiyyətin əsas şərti olmuşdur".

### "TƏSƏVVÜR EDƏ BİLMƏZDİK Kİ, ÖLKƏLƏR BU DƏRƏCƏDƏ RİYAKAR, YALANÇI OLA BİLƏRLƏR"

Laçın işğal altında olduğu müddətdə aparılmış danışıqlar zamanı vasitəçilərin Laçın rayonuna hansısa xüsusi bir yanaşma sərgilədiklərini bildirən dövlət başçımız Ermənistanın bütövlükdə Laçın rayonunun Azərbaycana qaytarılmasını qəbuledilməz saydığını qeyd edib: "Halbuki onlar digər rayonlardan da çıxmaq fikrində deyildilər. İndi - müharibədən iki il yarım keçəndən sonra bu, hər kəsə daha aydın oldu. Beynəlxalq vasitəçilər - ATƏT-in ovaxtkı Minsk qrupu danışıqların aparılması ilə faktiki olaraq bu işğalı möhkəmləndirməyə çalışırdılar. İndi hər şey aydın oldu - Fransanın Azərbaycana bu ədalətsiz və mənfi münasibəti təsadüfi deyil. Sadəcə olaraq, işğal dövründə bunu müəyyən dərəcədə pərdələmək istəyirdilər, sadəcə olaraq, bizi çaşdırmaq istəyirdilər. Amma baxın, müharibədən - İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində bizə qarşı hansı çirkin əməllər törədilir, hansı əsassız ittihamlar irəli sürülür. Yəni, bütün bunlar göz qabağındadır, o cümlədən Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi bir sıra qətnamə yenə də ermənipərəst, rüşvətxor və anti-Azərbaycan qruplaşmanın məhsuludur və burada aparıcı rolu Fransa deputatları oynayır. İşğal dövründə də biz bunu təbii ki, hiss edirdik, amma bu dərəcədə yox. Təsəvvür edə bilməzdik ki, ölkələr bu dərəcədə riyakar, yalançı ola bilərlər. Adamın üzünə baxıb bir söz deyə, arxada başqa iş görə bilərlər".

### "BİRİNCİ MƏRHƏLƏDƏ LAÇIN ŞƏHƏRİNDƏ 500-Ə YAXIN FƏRDİ EV İNŞA EDİLİR"

Artıq Laçın yenidən qurulur. İki ildən çoxdur ki, Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb, - deyən Prezident Laçın rayonunda Beynəlxalq Hava Limanının inşa edildiyini bildirib: "O bölgədə heç vaxt hava limanı olmamışdır və hava limanının yerini müəyyən edərkən böyük çətinliklərlə üzləşmişdik. Çünki orada uçuş-enmə zolağının inşası üçün düz yer tapmaq mümkün olmadı. Biz dağları kəsərək və böyük torpaq işlərini həyata keçirərək bütün dağlıq ərazilərdə, dağlarla əhatə olunan ərazilərdə beynəlxalq hava limanı inşa edirik. Yəqin ki, gələn ilin sonunda, ya da 2025-ci ilin əvvəllərində hava limanı istismara veriləcək". Kəlbəcər-Laçın yolunun yenidən qurulması prosesinə start verilib. "Birinci mərhələdə Laçın şəhərində 500-ə yaxın fərdi ev inşa edilir və ya ermənilər tərəfindən dağıdılmış evlər yenidən bərpa olunur. Çoxmərtəbəli səkkiz yaşayış binası yenidən qurulur, ya da ki, tamamilə əsaslı təmir olunur və 30-dan çox ictimai bina inşa edilir. Mənim göstərişimlə bütün bu işləri biz bu ilin sonuna qədər başa çatdırmalıyıq, bu, sadəcə, birinci mərhələ olacaq. Bu evlərin sayı göstərir ki, minlərlə insan artıq bu ilin sonuna qədər Laçın şəhərində yaşayacaq və laçınlılar bu il öz doğma diyarına qayıdacaqlar".

Azərbaycan Prezidenti İlham Əliyevin "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı tədbirlər haqqında" məlum Sərəncamı işğaldan azad olunan ərazilərimizin tezliklə abadlaşacağını və öz torpaqlarından didərgin düşmüş minlərlə insanın öz dədə-baba yurduna tezliklə qayıdacağını özündə əks etdirir. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işlərinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 800,0 (səkkiz yüz) min manat ayrılıb. Cənab Prezident çıxışında Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesinə start verildiyini bildirib. "Zabux kəndində 1000-dən çox, Sus kəndində isə 300-dən çox insan yerləşəcək. Xaricdə yaşayan ermənilər Zabux kəndində, yenə də deyirəm, o cinayəti törədən Ermənistan dövləti ilə birlikdə bir kənd salmışdılar, evlər tikmişdilər. O evlərdə indi bizim hərbi birləşmələrimizin şəxsi heyəti yerləşir. Ancaq Zabux kəndinin sakinləri üçün tamamilə yeni kənd salınır. Bununla yanaşı, bildirməliyəm ki, Güləbird və Qorçu kəndlərinin Baş planı mənim tərəfimdən təsdiqləndi. Birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 insanın yerləşməsi nəzərdə tutulur. Yəni, gətirdiyim bütün bu rəqəmləri nəzərə alaraq, hər kəs görə bilər ki, yaxın gələcəkdə - bu il və gələn il biz Laçın rayonuna təqribən 10 minə yaxın, bəlkə də çox keçmiş köçkünü yerləşdirəcəyik". Laçın şəhərinin bütün infrastrukturu yenidən qurulur - su xətləri, kanalizasiya xətləri, elektrik enerjisi xətləri, yollar, Laçın şəhərinin bütün daxili yolları yenidən qurulur.

### "BİZ ÇALIŞIRIQ Kİ, AZAD EDİLMİŞ BÜTÜN RAYONLARDA İŞLƏR PARALEL SURƏTDƏ GETSİN"

Dövlət başçımız Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonuna təyin olunan xüsusi nümayəndəsinə çıxışı zamanı tapşırıqlarını da verib: "Siz mənim xüsusi nümayəndəm kimi artıq dərhal işə başlamalısınız, bütün bu işlərə rəhbərlik etməlisiniz İnfrastruktur layihələri, əlbəttə ki, mərkəzi icra orqanları tərəfindən icra edilir. Eyni zamanda, siz Laçın rayonunun gələcək inkişafı ilə bağlı, iş yerlərinin yaradılması ilə bağlı, vətəndaşların rahat yaşaması ilə bağlı konkret əlavə təkliflər verməlisiniz. Çünki biz çalışırıq ki, azad edilmiş bütün rayonlarda işlər paralel surətdə getsin. Ona görə, məsələn, hər rayonda 3-4 kəndin birinci mərhələdə qurulması nəzərdə tutulur, eyni zamanda, əlbəttə ki, şəhərlər də daxil olmaq şərti ilə. Ancaq, məsələn, söhbət Laçın rayonundan gedirsə, Laçın rayonunda birinci mərhələdə qurulacaq bütün kəndlərin adları təsdiqləndi və biz birinci mərhələdə bəzi yerlərdə bir neçə kəndin sakinlərini bir yerə cəmləşdirəcəyik Azərbaycan dövləti öz üzərinə düşən vəzifəni bunda görür ki, biz yaxında yerləşən kəndlərin sakinlərini bir yerə yığıb onlar üçün gözəl şərait yaradaq. Yəni, biz şəhər tipli kəndlər quracağıq və mən qurulacaq bütün kəndlərin Baş planını təsdiqləmişəm. Eyni zamanda, kəndlərin xarici görkəmi də təsdiqlənib və yenə də deyirəm, həm rahat, həm də memarlıq nöqteyi-nəzərindən çox gözəl olacaq".

Görülən və görüləcək işlər böyük quruculuq, abadlıq işləridir. Təbii ki, Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı layihələrin reallaşmasına imkan verir. 30 ilə yaxın işğalda olan torpaqların bərpası, yenidən qurulması vaxt və maliyyə imkanları tələb edir. Bu gün işğaldan azad olunan və üçrəngli bayrağımız dalğalanan ərazilərimizdə müasir infrasturuktur yaradılır.

***Zümrüd BAYRAMOVA***

# Dövlət xidmətlərində şəffaflığın artırılmasına xüsusi diqqət yetirilir

## Prezident İlham Əliyev Əmlak Məsələləri Dövlət Xidmətinin yeni inzibati binasının açılışında iştirak edib







İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin paytaxt Bakıda yeni inzibati binası istifadəyə verilib. Azərbaycan Prezidenti İlham Əliyev yeni binanın açılışında iştirak edib.

Qeyd edək ki, son illərdə paytaxtda modern üslubda tikilən hündürmərtəbəli binalar sırasına daha biri əlavə olunub. Ulu Öndər Heydər Əliyevin adını daşıyan prospektdə ucaldılan yeni bina da müasir memarlığı ilə diqqəti cəlb edir. İqtisadiyyat naziri Mikayıl Cabbarov bina barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, bina modern və postmodern üslubda layihələndirilib və mürəkkəb konstruktiv quruluşa malikdir. Hündürlüyü 125 metr olan bina 33 mərtəbədən ibarətdir. Yükdaşıyan konstruksiyaları 9 ballıq zəlzələyə davamlı olan binanın hər mərtəbəsi digər mərtəbəyə







nisbətdə 2,65 dərəcə dönür və nəticədə fasad müstəvisi 90 dərəcəlik burulma effekti yaradır.

Binanın daha bir diqqətçəkən cəhəti isə yuxarıdan baxanda kürsü mərtəbəsinin Azərbaycanın xəritəsi formasında inşa edilməsi və şərq tərəfdən "Xəzər dənizi" dekorativ hovuzu ilə əhatə olunmasıdır. İşçi mərtəbələri 254 otaqdan ibarət olan binada 537 əməkdaşın fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binada müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şəraitə malik və müasir multimedia vasitələri ilə təchiz olunmuş konfrans və iclas zalları, həmçinin müxtəlif təyinatlı iclas otaqları, yeməkxanalar var. Binadaxili mikroiqlimin təmin olunması, səmərəli enerji sərfiyyatının tənzimlənməsi, işıqlandırma, yanğınsöndürmə və təhlükəsizlik sistemlərinin idarə edilməsi, fövqəladə hallar zamanı mühəndis-texniki sistemlərin tənzimlənməsi üçün İdarəetmə Mərkəzi qurulub. Göründüyü kimi, yeni binada tikintidə müasir çağırışların paytaxtımızın infrastrukturuna inteqrasiyası ilə yanaşı, işçi heyətin daha səmərəli çalışması üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü islahatlar çərçivəsində əmlak məsələləri sahəsində də bir sıra irəliləyişlərə nail olunub. Belə ki, dövlət əmlakının idarə edilməsi, özəlləşdirilməsi, daşınmaz əmlakın qeydiyyatı və kadastrı, torpaq idarəçiliyi və digər sahələrdə mühüm işlər görülüb. Vətəndaşlara və sahibkarlara göstərilən dövlət xidmətlərində şəffaflığın artırılmasına, elektron xidmətlərin genişləndirilməsinə, vətəndaş məmnunluğunun yüksəldilməsinə xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, 2022-ci ildə vətəndaşlardan, sahibkarlardan, bələdiyyələrdən, dövlət qurumlarından Xidmətə 1 milyona yaxın elektron müraciət daxil olub.

Xüsusi vurğulayaq ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əks etdirilən tədbirlər, o cümlədən həmin ərazilərdə yerquruluşu, torpaqların elektron kadastr uçotu, torpaq tədqiqatları, torpaqların idarə edilməsi və işğal nəticəsində dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı işlər davam etdirilir. Məsələn, işğaldan azad edilmiş ərazilərdə ötən il 390 min hektar sahədə yerquruluşu, 283 min hektarda çöl torpaq tədqiqatı, 309 min hektarda geobotaniki tədqiqat işləri görülüb. Həmçinin azad edilən ərazilərdə indiyədək 14,1 min daşınmaz əmlakın ilkin inventarlaşdırılması işləri tamamlanıb. Bu sahədə uğurlardan biri də işğaldan azad edilmiş ərazilərdəki daşınmaz əmlak və infrastruktur obyektləri barədə toplanmış məlumatların etibarlı surətdə qorunmasının və səmərəli istifadəsinin təmin edilməsi məqsədilə Qarabağ Rəqəmsal Geo-İnformasiya Sisteminin yaradılmasıdır. Bu günədək rəqəmsallaşdırılması mümkün olan 164 minə yaxın tikili və qurğudan təqribən 145 mini təsbit olunub və həmin sistemə daxil edilib.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında Fərman imzalayıb.

***

Zaur Rauf oğlu Mikayılov Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri təyin edilib. Bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 22 noyabr tarixli 24 nömrəli, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 10 mart tarixli 299 nömrəli və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2008-ci il 4 iyul tarixli 792 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# 4 aprel döyüşləri - BÖYÜK ZƏFƏRƏ gedən yolun başlanğıcı

## PREZİDENT İLHAM ƏLİYEV: "Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun"



Azərbaycan Ordusunun parlaq tarixi qələbələrindən olan şanlı aprel döyüşlərindən 7 il ötür. 2016-cı il aprelin 2-də işğalçı Ermənistanın silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin, minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu dördgünlük aprel döyüşləri ilə 24 ildən sonra xalqımıza qələbə sevinci yaşatdı.

### APREL DÖYÜŞLƏRİ İŞĞALÇILAR ÜÇÜN BİR MESAJ, BİR SİQNAL İDİ Kİ, İŞĞALA SON QOYUN, TORPAQLARIMIZDAN ÇIXIN, RƏDD OLUN

Aprel döyüşləri işğalçılar üçün bir mesaj, bir siqnal idi ki, işğala son qoyun, torpaqlarımızdan çıxın, rədd olun. Belə ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi hissənin şəxsi heyəti qarşısında çıxışı zamanı bildirmişdir: "Bizim Aprel döyüşlərindəki qələbəmizdə xüsusi təyinatlıların çox böyük xidmətləri olmuşdur. Ancaq əfsuslar ki, Aprel hadisələri işğalçılar üçün dərs olmadı. Onlar işğalı əbədiləşdirmək üçün öz səylərini davam etdirdilər və işğalı əbədi etmək üçün Azərbaycana, Azərbaycan Silahlı Qüvvələrinə hədə-qorxu gəlməyə davam etdilər. Bizi yeni müharibə ilə hədələyən düşmən İkinci Qarabağ müharibəsində öz dərsini aldı. "Qarabağ Ermənistandır və nöqtə" deyən düşmən bu gün "Qarabağ Azərbaycandır" deyir. Nəyin hesabına? Danışıqlar hesabına yox! Güc hesabına, qüdrət hesabına, Azərbaycan Ordusunun Zəfəri hesabına! Biz güclü ordu yaratmışıq. Bundan sonra da bu istiqamətdə işlər aparılacaq"."Mən Prezident kimi öz səlahiyyətlərimi icra etməyə başlayan zaman demişdim ki, mənim üçün Prezident və Ali Baş Komandan kimi birinci vəzifə ordu quruculuğudur. Çünki torpaqlarımız işğal altındadır, danışıqlara ümidlərimiz tükənib və güc yolu ilə biz bu məsələni həll etməliyik. Bunu illər boyu bəyan edirdim, çalışırdım Ermənistan rəhbərliyi, nəhayət anlasın ki, Azərbaycan xalqı və Azərbaycan rəhbərliyi, Azərbaycan Ordusu bu işğalla heç vaxt barışmayacaq. Bunu rəsmən bəyan edirdim ki, nəyin bahasına olursa-olsun, torpaqlarımızı düşmənin əlindən alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik", - dövlət başçısı vurğulayıb."Biz Ermənistan torpağını işğal etməmişik. Biz öz torpağımızda vuruşuruq. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm". Bəli, bu Ali baş Komandanın işğalçı və təxribatçı dövlətə qətiyyətli mesajı idi.

### 2016-CI İL APRELİN 2-Sİ - BÖYÜK ZƏFƏRƏ GEDƏN YOLUN BAŞLANĞICI

2016-cı il 1 aprel gecəsi - BÖYÜK ZƏFƏRƏ gedən yol. Qarabağa aparan işıqlı və inamlı yolumuz da elə o gündən başladı. O gecə şanlı ordumuz illərin sükutunu pozaraq, düşmənə kimliyimizi, mənlik və mərdliyimizi necə lazımdır sübut etdi. 2016-cı il aprelin 2-də quduzlaşmış Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin, minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçərək, Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə 24 ildən sonra xalqımıza qələbə sevinci yaşatdı. Bu sevinc, bu qələbə güclü ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu, proqmativ siyasətinin nəticəsində əldə olundu. Çünki güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi, elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Və aprelin 2-dən başlayaraq Ermənistanın hərbi hissələrinin təmas xəttində Azərbaycanın işğal altında olan ərazilərində yerləşən Azərbaycan Silahlı Qüvvələrinin bütün cəbhəboyu mövqelərini iriçaplı silahlar, minaatanlar, qumbaraatan və artilleriya qurğularından intensiv atəşə tutaraq qoşunların təmas xəttində növbəti təxribatların uğurla qarşısının alınması, məhz müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlarının, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusunun olmasının nəticəsidir. Daha dəqiq desək, Azərbaycanın şanlı silahlı qüvvələrinin cəbhədə əldə etdiyi zəfərləridir. Əslində, bu, gözlənilən idi. Çünki uzun müddət idi ki, işğalçı Ermənistan rəhbərliyi, bu rejimin Qarabağdakı yedəyi - "Dağlıq Qarabağ Respublikası" separatçıları zaman-zaman özlərinə güvənən bəyanatlarla çıxış edir, "qüdrətli və məğlubedilməz erməni ordusu"nun imicini reklam etməklə siyasətdəki yerlərini möhkəmləndirməyə çalışsalar da, yenə də Azərbaycan ordusu onları zamanında yerlərinə oturtdu və dərslərini verdi. Ordumuzun qəti zərbələri nəticəsində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, 320 hərbçisi öldürüldü, 500-dən artıq döyüşçüsü yaralandı. Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılması təmin edildi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə Azərbaycan hərbçilərinin xüsusi fərqlənən bir qrupu 2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görülüb, orden və medallarla təltif ediliblər. "Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir",- deyən dövlət başçısı bildirmişdir ki, Aprel döyüşləri Azərbaycan xalqının və Ordusunun tarixi ərazilərimiz olan Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi üçün hər cür fədakarlığa və hərbi qüdrətə hazır olduğunu düşmənə yanaşı, bütün dünyaya sübut etdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun Aprel qələbələrinin ildönümü ilə əlaqədar martın 31-də bir qrup hərbçimizlə görüşdə deyib: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir".Həqiqətən də, dövlətimizin başçısının dediyi kimi, Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, Azərbaycan Ordusu təmas xəttində mövcud vəziyyətə tam nəzarət etsin və lazımi tədbirləri görə bilsin.

### APREL DÖYÜŞLƏRİ "BÖYÜK QAYIDIŞ"A START VERDİ

Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti bu qələbə sayəsində "Böyük Qayıdış" prosesinə start verilməsi oldu. Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində mülki əhalinin yaşayışı üçün təhlükə tamamilə aradan qaldırıldı. Dövlətimizin başçısının Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci il 24 yanvar tarixli Sərəncamı ilə "Böyük Qayıdış" prosesinə start verildi. Artıq bu kəndin əhalisinin 24 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunmasına bütün xalqımızda dərin inam yaratdı. Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təmas xəttinə gedərək, Ermənistan ordusunun atəşləri nəticəsində yaşayış məntəqələrimizə dəyən ziyanla yerində tanış olmaları, yerli əhali, eləcə də ön xətdə şəxsi heyətlə görüşü xalqımızın və Ordumuzun düşmən üzərində qəti qələbəyə ümidlərini daha da artırdı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Aprel döyüşlərinin əhəmiyyəti barədə dediyi sözlər bu qələbənin Ordumuz və xalqımız üçün önəmini açıq şəkildə ifadə edir: "Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün, həmişə olduğu kimi, birinci yerdə duran prioritet məsələdir". Ölkə Prezidenti, həmçinin onu da bildirdi ki, Ermənistan nə qədər təxribatçı əməllərə əl atacaqsa, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq: "Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq". "Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun"-deyən dövlət başçısı bildirdi ki, bizə qarşı yenə təxribat törədilərsə, onlar yenə də öz cəzalarını alacaqlar.

### BƏLİ, ALDILAR. 2020-Cİ İL - ALİ BAŞ KOMANDANIN XALQA BƏXŞ ETDİYİ QARABAĞ AZƏRBAYCANDIR!

Ürəyimizdə qübar edən bir problemimiz - düşmən işğalında olan Qarabağımızın niskilinə son qoyuldu. 30 ilə yaxın idi ki, dilimizdən düşməyən gün o gün olsun ki... arzusu ilə yaşayırdıq, xiffətini çəkdiyimiz ata-baba torpaqlarına böyük qayıdışın arzusu, xəyalı ilə yaşayırdıq. Nəhayət, sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı, bütün cəbhəboyu ağır artilleriyadan istifadə etməklə hücuma keçməsi və birbaşa mülki əhalini hədəfə alması nəticəsində Azərbaycan Ordusu Vətən uğrunda ölüm-dirim savaşına qalxdı. 30 illik həsrətə düz 44 gün ərzində Qarabağ münaqişəsinə Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının diplomatik siyasəti və rəhbərliyi ilə "İRƏLİ!" göstərişi ilə güclü Ordumuzun, Müzəffər əsgər və zabitlərimizin rəşadəti ilə Qarabağ Azərbaycandır! nidasını qoydu.

Dövlət başçımız İlham Əliyev cənabları çıxışlarında da dönə-dönə vurğulayır ki, bu Qələbə Azərbaycan Ordusunun gücünü göstərdi: "Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi. Onu göstərdi ki, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq. Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz".

30 ilə yaxın zaman müddətində həll olunmayan qondarma "Dağlıq Qarabağ" probleminin 44 gün ərzində həll olunması ilə 2020-ci il tariximizə Qələbə ili ilə Azərbaycan tarixinə yazıldı. Bu, haqqın qələbəsidir. Bu, Azərbaycan xalqının qələbəsidir. Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilən tarixi qələbəsidir! Bu, 44 günlük ZƏFƏR QƏLƏBƏSİ idi. Bu, Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin dediyi kimi: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

***RƏFİQƏ KAMALQIZI***

# Heydər Əliyev xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisidir

*Ağsuda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin öyrənilməsi və yeni nəslə aşılanması məqsədilə martın 30-da YAP Ağsu rayon təşkilatı tərəfindən tədbir keçirilib. Əvvəlcə ümummilli lider, müasir müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə təbii fəlakət nəticəsində həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Daha sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Ağsu rayon təşkilatının sədri Füzuli Abdullayev bildirib ki, Azərbaycanın dövlətçilik tarixinin çox mühüm mərhələsi dünya şöhrətli siyasətçi, böyük dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır: "Ulu Öndər öz mənalı və zəngin ömrünü bütövlükdə millətinə, xalqına, vətəninə və dövlətinə həsr etmiş, müqəddəs amallar uğrunda müstəsna fəaliyyət göstərmişdir. Məhz Ulu Öndərin gərgin əməyi və qətiyyətli siyasəti sayəsində yeni, müasir Azərbaycan dövləti qurulmuş, ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur. Dahi şəxsiyyətin Azərbaycana rəhbərlik etdiyi dövr çoxəsrlik dövlətçilik tariximizin ən şanlı səhifələrindəndir".

O qeyd edib ki, Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın tərəqqisini təmin edib, torpaqlarımız işğaldan azad olunub və ölkəmiz möhtəşəm nailiyyətlərə imza atmaqdadır.



Tədbirdə çıxış edən Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov bildirib ki, müasir müstəqil Azərbaycanın memarı, ümummilli lider Heydər Əliyev tarix yaradan əvəzolunmaz şəxsiyyətdir. Görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan dövlətçiliyini bütün təhlükələrdən qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət Heydər Əliyevin müstəsna fəaliyyəti müasir tariximizin şərəfli mərhələsini təşkil edir. O qeyd edib ki, bu gün Azərbaycan dinamik inkişaf edən, beynəlxalq müstəvidə layiqli yer tutan, müstəqil siyasət yürüdən bir dövlətdir. Məhz Heydər Əliyevin ideyaları əsasında ölkəmizin maraqları naminə praqmatik siyasət həyata keçirən Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan Zəfər zirvəsinə yüksəlmişdir. Bu, bir daha əyani olaraq sübut edir ki, dahi Liderin ideyaları bənzərsizdir və gələcək üçün Azərbaycanın işıqlı yol xəritəsini müəyyən etmişdir.



YAP İdarə Heyətinin üzvü Tofiq Cahangirov vurğulayıb ki, Ulu Öndərin uzaqgörən, müdrik siyasəti nəticəsində müstəqil Azərbaycan tərəqqi yolunda inamla irəliləyir. Azərbaycanın müsbət beynəlxalq imici yaranıb, ölkəmiz dünyanın siyasi arenasının fəal subyektlərindən birinə çevrilib. Ulu Öndər xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisi olaraq adını tarixə qızıl hərflərlə yazdırdı.

Xalq artisti, Prezident təqaüdçüsü, şəhid atası Əli Nuruzadə qeyd edib ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı.

Tədbirdə Ağsu rayon Heydər Əliyev Mərkəzinin direktoru Reyhanə Tacızadə, Ağsu rayon Ağsaqqallar şurasının sədri Seyfəddin Abdullayev, Ağsu şəhər 4 saylı tam orta məktəbin direktoru Günay İnayətova çıxış edərək Ulu Öndərin misilsiz xidmətlərindən bəhs ediblər. Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərmanlar, partiya sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim edilib.

# Zəfərdən Qayıdışa: hədəflər uğurları şərtləndirir




**Hərb meydanında qazandığımız möhtəşəm Zəfəri diplomatiya müstəvisində və quruculuq meydanında möhkəmləndirir, yeni strateji qələbələrin təməlini formalaşdırır. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri də bu baxımdan mühüm əhəmiyyətə malikdir.**

Əzəli yurdumuza tarixi Qayıdışı qısa zamanda və yüksək səviyyədə təmin etmək üçün qarşıya qoyulan hədəflər böyük, imkanlar isə genişdir. İşğaldan azad edilən tarixi torpaqlarımızda qısa müddət ərzində infrastrukturun qurulması - yolların, elektrik enerjisi, su xətlərinin çəkilməsi, hava limanlarının tikilməsi görülən işlərin miqyasından və önəmindən xəbər verir.

Ərazilərin bərpasında müasir texnologiyaların - "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarının tətbiq olunması isə insanların rahat yaşayışının təmin edilməsinə hesablanıb, rifah və firavan gələcək vəd edir. Bu həm də o deməkdir ki, məskunlaşma prosesi intensiv şəkildə aparılacaq, doğma torpaqlara dönüş qısa müddətdə reallaşacaq.

Əlbəttə, atılan addımlar, görülən işlər həm də ona imkan verir ki, yurd-yuvalarına qayıdacaq soydaşlarımız təhlükəsizlik şəraitində yaşasınlar. İşğal dövründə ermənilərin dağıdıb viran qoyduğu digər yurd yerlərimiz kimi, Laçın rayonunun da həm təhlükəsizliyinin təmin olunması, həm də məskunlaşma prosesinin tezliklə reallaşdırılması əsas vəzifələrdən biridir. Artıq iki ildən çoxdur ki, rayonun yenidən bərpası ilə bağlı intensiv işlər aparılır, mühüm layihələr gerçəkləşdirilir. Laçının strateji əhəmiyyətini nəzərə alsaq, burada beynəlxalq standartlara uyğun infrastrukturun qurulması, habelə beynəlxalq hava limanının tikintisinin vacibliyini xüsusi qeyd etmək lazımdır. Bununla Qayıdış üçün yeni imkanlar yaranacaq, həmçinin bölgəyə turist axını sürətlənəcək.

İşğaldan azad olunan şəhər və kəndlərin Baş planları hazırlanarkən tarixlə müasirliyin vəhdəti əsas götürülür. Şübhəsiz ki, öz füsunkar təbiəti ilə, həm rahat, həm də memarlıq nöqteyi-nəzərindən Laçının da gözəl diyara-cənnət məkana çevriləcəyi gün uzaqda deyil. Bəli, arzular reallaşır - Böyük Qayıdış gerçəkləşir. Biz qururuq, yaradırıq və yaşadacağıq!

# MEDİA tələbələr üçün infosessiya keçirib

Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı ilə "MEDİAlab" layihəsi çərçivəsində ali təhsil müəssisələrinin tələbələri üçün infosessiya keçirilib. Bu barədə SİA-ya MEDİA-dan məlumat verilib. Tədbirdə açılış nitqi ilə çıxış edən Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli bildirib ki, bu layihə media sahəsində innovasiya və inkişaf yönümlü fəaliyyətin davamlılığının təmin edilməsi, təhsil prosesində ənənəvi medianın rəqəmsal mediaya inteqrasiyasının dəstəklənməsi və gənclərin bacarıqlarının inkişafında müstəsna rol oynayacaqdır.



Tədbirin davamında MEDİA Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova media sahəsində gənc və peşəkar mütəxəssislərin hazırlanması və tendensiyalara uyğun rəqəmsal media bacarıqlarının inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Sonra MEDİA Agentliyinin nümayəndəsi Aytən Babayeva "MEDİAlab" layihəsinin təqdimatını edərək, layihənin əsasən iki komponentdən - maarifləndirmə və bacarıqların inkişafından ibarət olacağını bildirib. MEDİA Agentliyinin nümayəndəsi Aynur Zeynallı isə layihə çərçivəsində keçirilən sorğunun nəticələri və bir illik fəaliyyət planı haqqında məlumat verərək, növbəti mərhələdə müxtəlif ardıcıl inkişaf proqramlarının təşkil olunacağını vurğulayıb. Tədbirin ikinci hissəsində Azərbaycan Televiziyasının "Xəbərlər" proqramının aparıcısı, telejurnalist Ruslan Həsənov tərəfindən "Newslab" - yaradıcı düşünmə, məzmun istehsalı və xəbər hazırlanması ilə bağlı bacarıqların inkişafı vörkşopu keçirilib. İnteraktiv müzakirə formatında keçirilən sessiyada Ruslan Həsənov iştirakçıları maraqlandıran sualları cavablandırıb, onlara praktik tapşırıqlar verib.

"MEDİAlab" layihəsinin əsas məqsədi texnoloji transformasiya zəncirinin əsas halqalarından olan insan resurslarının inkişafı üçün müvafiq sahədə kadr potensialının artırılması, media subyektləri və ali təhsil müəssisələri arasında qarşılıqlı fəaliyyət və əməkdaşlığın genişləndirilməsinə dəstək göstərilməsi, gənclərə rəqəmsal media bacarıqlarının təkmilləşdirilməsi üçün əlverişli ekosistemin yaradılmasıdır.

# Separatçıların arzulamadığı
# HƏQİQƏTLƏR VƏ REALLIQLAR

**Dünyada müşahidə edilən iqtisadi böhran, xüsusən enerji təhlükəsizliyi hər kəsi narahat edir və xüsusən Avropa bu məsələdə sıxıntılarla qarşı-qarşıya olduğunun çoxdandır ki, fərqindədir. Elə bu səbəbdən də Avropanın bir sıra ölkələri enerji təminatçısı olan Azərbaycana xüsusi dəyər verməkdədir və bu reallıq indi erməni cəmiyyətində separatçıları bərk narahat edir və bu mənzərə separatçıların arzulamadığı həqiqətlərləri əks etdirən mənzərədir.**



İndi hayların kürkünə birə düşməsi tam şəkildə anlaşılandır və yenə də ağzıgöyçəklər reallıqlara don geyindirmək üçün əldən-ayaqdan gedirlər. Avropanın bir sıra ölkələrinin Azərbaycanla əlaqələrə üstünlük verməsi, ölkəmizin mövqeyini dəstəkləməsi separatizmi dəstəkləyən hayların yuxularını ərşə çəkib. Yuxuları ərşə çəkilən həmin o haylar da yenə reallıqları təhrif etməkdən başqa çarə tapmırlar və ölkəmizlə münasibətlərə, hüquqi addımlarımıza, mövqeyimizə dəyər verən ölkələri erməni yalanları müstəvisində olan hansısa qondarma prinsplərə xəyanətdə ittiham etməyə çalışırlar. Macarıstan, İtaliya kimi ölkələr indi separatçı hayların hədəfinə çevrilib, ona görə ki, həmin ölkələr Azərbaycanın haqlı mövqeyini dəstəkləyirlər və ölkəmizlə iqtisadi əlaqələrə üstünlük verirlər. Onlar ölkəmizin ümumilikdə Avropa üçün enerji təminatçısı, iqtisadi tərəfdaş olmasını, eləcə də iqtisadi potensialının getdikcə artmasını və bunun dəyərləndirilməsini nəinki qəbul etməkdə çətinlik çəkirlər, bu həqiqətlər onlar üçün kabusa çevrilib.

Bilirik ki, fevralın 5-dən Avropa İttifaqında Rusiya neft məhsullarının ticarətinə qadağa qoyulması barədə qərar qüvvəyə minib və bu o deməkdir ki, Avropada artıq neft məhsullarına olan tələbat yaranıb. Məhz elə bu tələbatla əlaqədar Azərbaycan neftinə maraq, eləcə də ehtiyac artıb. Məsələn, Macarıstanın MOL şirkəti Bratislavadakı neft emalı zavodunda müxtəlif növ yanacaq istehsalı üçün Azərbaycan neftindən istifadə etməyə başlayır. Macarıstanın neft və qazla zəngin Azərbaycanla əməkdaşlıqda fayda olduğunu qəbul edir. Bu da Bakı ilə Budapeştin münasibətlərinin, dostluğunun bundan sonra daha möhkəm olması deməkdir, hansı ki, separatçı haylar bundan bərk narahat olmağa başlayıblar. Amma onlar bir həqiqəti başa düşməkdə çətinlik çəkirlər ki, əslində, Azərbaycan istər təbii sərvətləri ilə, istərsə də öz mövqeyi ilə Avropa ölkələrinin diqqətini cəlb edir və bundan sonra da cəlb edəcək. Bu, onlar arzulamadıqları həqiqət, mövcud reallıqdır.

Cari ilin 30 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşü və görüşdən sonra sənədlərin imzalanması onsuz da hay əsilli separatçıları bərk qıcıqlandırmışdı. Azərbaycan Respublikası ilə Macarıstan arasında genişləndirilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması da öz növbəsində onlar üçün heç də arzuolunan deyildi. Digər tərəfdən də Azərbaycanın Şuşa şəhəri ilə Macarıstanın Vesprem şəhəri arasında dostluq əlaqələrinin təsis edilməsi, mədəniyyət, turizm, şəhərsalma, elm, iqtisadiyyat və ictimai həyatın digər sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması isə nəinki ölkələrimiz, hətta şəhərlərimiz arasındakı dosluğun bundan sonra daha də möhkəmlənəcəyindən xəbər verir, hansı ki, bu, separatçı hayları tamamilə hövsələdən çıxarıb və bütün bunlara öz xislətlərinə uyğun don geyindirmələri də təbii ki, anlaşılandır və bu, keçirdikləri narahatçılığın təzahürü kimi başa düşülür.

Separatçı haylar Macarıstanın Azərbaycanla əlaqələrindən o qədər narahat olublar ki, həmin ölkəyə NATO və Avropa İttifaqında yer olmadığı fikrini yaymaqdan da utanmırlar. Yəni, iki suveren ölkənin bir-biri ilə iqtisadi, eləcə də dostluq əlaqələrinə, xüsusən enerji böhranının aradan qaldırılması üçün töhfələr verən münasibətlərinə belə bir don geyindirmək sözün əsl mənasında ən azından utanmazlıqdır. Sözsüz ki, hayların bu münasibətlərdən qısqanclıq hissi başadüşüləndir, çünki ölkəmizin belə əlaqələrlə qüdrətinin daha da artdığı bir reallıq, təkzibedilməz həqiqətdir, hansı ki, bu həqiqət onların arzulamadığı həqiqət hesab olunur.





Azərbaycan torpaqlarında məskunlaşan, Qarabağ ərazilərində yaşayan erməni əsillilərin guya blokadaya alınmasını bildirən və onların guya blokadada qalmasına Macarıstanın susqunluğunu da separatçı haylar öz hay-küyləri ilə eybəcər görüntüyə oxşatmağa çalışırlar. Halbuki, nə blokadadan söhbət gedə bilməz, nə də erməni əsillilərin sıxışdırılmasından. Azərbaycan öz ərazisində yaşamaq hüququ verdiyi erməni əsilliləri niyə blokadada saxlasın axı? Əgər belə bir niyyət olsaydı, heç onların məskunlaşmasına belə imkan verilməzdi. Məgər Ermənistan ərazisində azərbaycanlıların yaşamasına, məskunlaşmasına imkan verilib? Verilməyib. Halbuki, Qarabağda yaşayan hay əsillilərdən fərqli olaraq, həmin ərazilər, yəni Ermənistanın əraziləri bizim dədə-baba torpaqlarımız, yurd-yuvamız olub, amma orada bir dənə də olsun azərbaycanlının qalmasına, yaşamasına ermənilər imkan verməyiblər, etnik təmizləmə siyasətlərinə tam şəkildə əməl ediblər. Belə olan halda, onları blokadada saxlamaqda Azərbaycanı hansı üzlə ittiham etdikləri bəlli deyil, çünki bu, yalnız erməni xislətinə tanış ola bilər. Əsl reallıq, ən çılpaq həqiqət də elə budur, hansı ki, bu həqiqəti də, bu reallığı da ermənilər görməyi belə arzulamırlar, nəinki qəbul etməyi.

Çoxdandır ki, erməni əsilli separatçıları narahat edən, hətta onları ağrıdan bir çox Avropa ölkələrinin Azərbaycanla dostluq etməyə, əlaqələrini möhkəmləndirməyə maraqlı olmasıdır. Macarıstandan başqa İtaliya ilə münasibətlər də hayların gözünə şiş kimi batıb. Separatçı haylar İtaliyanın Azərbaycana ehtiramını həzm edə bilmirlər. Özü də italyanların azərbaycanlılara olan rəğbətini açıq şəkildə göstərməsi hayları tamamilə özlərindən çıxarır. Xüsusən, göründüyü ki, Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək uğrunda apardığı 44 günlük müharibəni İtaliya parlamenti pisləmədi, əksinə, dəstəklədi, hayların halları tamamilə pisləşdi və bu ölkəni də özlərinə düşmən bəllədilər. Əslində, İtaliya həqiqətin, doğrunun, haqlı mövqeyin, bir sözlə hüquqi tələblərlə çıxış edən ölkənin, yəni haqlı olan Azərbaycanın yanında olduğunu bəyan edib, heç bir qəbahət etməyib, halbuki, bu reallığı separatçı haylar uda, qəbul edə bilmirlər.

Haylar bilirlər ki, son illər İtaliya Azərbaycandan böyük həcmdə, çoxlu miqdarda təbii qaz idxal edib. Bilirlər və hətta görürlər ki, bu həcm get-gedə də artır. Müqaisə üçün diqqətə çatdıraq ki, 2021-ci ildə İtaliyanın Azərbaycandan idxal etdiyi təbii qazın dəyəri 3 milyard 377 milyon 214,666 min avro təşkil etdiyi halda, 2022-ci ildə bu rəqəm 13 milyard 253 milyon 515,481 min avro təşkil edib. Deməli, İtaliyanın 2022-ci ildə Azərbaycandan qaz alışı üçün xərcləri təxminən 3,9 dəfə artıb. Bu çox böyük rəqəmdir və artım dinamikası da göz önündədir. Bir sözlə, haylar arzulamadıqları həqiqətləri görürlər və separatçıların ovqatını təlx edən də bu reallıqlardır. Bundan sonra Avropa ölkələrinin Azərbaycanla əlaqələrə üstünlük verəcəyi şübhə doğura bilməz, çünki ölkəmiz onlar üçün Ermənistandan fərqli olaraq maraqlı tərəfdir. Bu baraq isə əlaqələrin daha da artacağı anlamına gəlir. Əlaqələrin daha da artması isə ölkəmizin qüdrətinin sürətlə artması deməkdir, hansı ki, bu reallıq da düşmənlərimiz üçün arzuolunmazdır.

Azərbaycanın əlaqələri genişlənir, qüdrəti, gücü, potensialı artır və bu reallığı qəbul etməmək axmaqlıqdan başqa bir şey deyil. Ən böyük axmaqlıq isə bu potensialı dəyərləndirməməkdir. Bu gün Ermənistan tərəfi sülh danışıqlarını ləngidirsə, Qarabağda bir neçə nizamsız silahlı dəstə revanş dedikləri hansısa axmaq fikirlərə düşübsə, bu ən böyük səhv və yanlışlıqdır. Əvvəla ona görə ki, reallıqda Azərbaycanın hərbi gücü, ümumiyyətlə, iqtisadi qüdrəti hayların ölkəsi ilə müqayisəyə belə gəlməz. Ermənistanın silahlı qüvvələri verdikləri bu qədər itgilərdən əvvəl Azərbaycanın qarşısında cəmi 44 gün davam gətirə bilmədisə, deməli, xaotik silahlı birləşmələr, separatçı dəstələr bir neçə saatda məhv edilə bilər, hansı ki, bu reallığı, bu həqiqəti görməyi arzulamasalar belə, nə qədər tez dərk etsələr bir o qədər onlar üçün yaxşı olar, böyük itgilərdən yaxa qurtara bilərlər. Digər tərəfdən də, əgər Ermənistan tərəfi bu zamana qədər Avropa ölkələrinin dəstəyinə ümid edirdisə, onlara tərəf çıxacaqları, Azərbaycanı hədəfə alacaqları qənaətində idisə, indi belə bir ümid bəsləməyə, belə bir qənaətdə olmağa əsaslar belə yoxdur. Çünki Azərbaycanın Avropada artıq maraqlı tərəf və söz sahibi olduğu təkzib edilə bilməz. Əsl reallıq elə bunlardır, hayların xəyal etdikləri, uydurduqları miflər yox. Bu reallıqları, bu həqiqətləri separatçılar arzulamaya bilərlər, amma bunlar bir gerçəklikdir və onların Azərbaycanın qalib ölkə, bundan sonra da qələbə əzmində bir dövlət olması ilə barışmaqdan başqa çarələri yoxdur.

***İnam Hacıyev***

# Tarixlə təxəyyül arasında, yaxud ədəbi məxəzlərdə erməni vəhşiliklərinin apokaliptik mənzərəsi

***Soyqırım dəhşətləri, ermənilərin azərbaycanlıların başına gətirdiyi oyunlar, açdığı müsibətlər bütün XX əsr boyu davam etmişdir. Bu düşünülmüş, planlı surətdə həyata keçirilən soyqırım aktı barədə milli müstəqillik qazandığımız dövrlərdən etibarən daha açıq, dürüst şəkildə və doğru faktlarla bəhs edilib. O faktların ehtiva olunduğu məxəzlər bu gün həm də ədəbi mətnlərdir. Bu müstəvidə iki əsər xüsusilə seçilir: Məmməd Səid Ordubadinin ”Qanlı sənələr” və Mir Möhsün Nəvvabın ”1905-1906-cı illərdə erməni-müsəlman davası” əsərləri. Və bəlkə də tarixi gerçəkləri ifadə etmək baxımından tarixin bir parçasına çevrilir. Hər halda törədilən faciə o qədər tükürpədici və amansız hadisələrlə zəngindir ki, yazıçı təxəyyülünə yer qalmır.***



*ELNARƏ AKİMOVA,*
*YAP İdarə Heyətinin üzvü,*
*filologiya elmləri doktoru,*
*AMEA Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunda şöbə müdiri*

## Məmməd Səid Ordubadinin ”Qanlı sənələr” əsərində erməni-müsəlman davasının tarixi aspektləri

XX əsr Azərbaycan nəsrinin formalaşmasında böyük rolu olan yazıçı Məmməd Səid Ordubadi ”Qanlı Sənələr” tarixi əsərini 1908-ci ildə yazıb başa çatdırmış, əsər ilk dəfə onun ”Tazə həyat” qəzeti vasitəsilə millətin sərvət sahiblərinə müraciətindən sonra Bakı milyonçu-xeyriyyəçisi Murtuza Muxtarovun maddi yardımı ilə 1911-ci ildə nəşr olunmuşdur. XX əsrin əvvəllərində baş vermiş erməni-müsəlman davasının müxtəlif bölgələrdən gələn müxbir məktubları əsasında təsviri XX əsrin əvvəllərində erməni terrorçularının törətdiyi cinayətlərin məzmunu və gedişi haqqında geniş təsəvvür yaradır.

Məlumdur ki, XX əsrin əvvəllərində Qarabağda azərbaycanlı əhaliyə qarşı ermənilər tərəfindən kütləvi qırğınlar törədilmiş, dinc əhaliyə divan tutulmuşdur. Məmməd Səid Ordubadinin qələmə aldığı hər fakt, hər detal çağın gerçəklərini dərk etməkdə, erməni havadarlarının iç üzünü tanımaqda tarixi məxəz rolunu oynayır. M.S.Ordubadi ”Qanlı sənələr” əsərində Şuşada baş verən hadisələrlə bağlı yazır: ”1905-ci il avqust ayının 8-də gecə saat iki radələrində ermənilər küçədə şəhər fanarlarını yandıran Kərbalayı Məmmədhüseyin adlı müsəlmanı xəncərlə doğrayıb vəhşicəsinə öldürməklə ermənilərlə müsəlmanlar arasında yeni münaqişə toxumları səpdilər”.

”Qanlı sənələr” əsərində erməni hiyləsi və qurnazlığı, bu üzdəniraq xalqın, nəyin bahasına olursa-olsun, türkü yer üzündən silmək, məhv etmək istəyi, bu yolda həyata keçirdiyi fitnə-fəsadları incə detallarla sərgilənir. Ordubadinin təhkiyəsinin əsas özəlliklərindən biri əsərdə təsvir olunan hadisələrin reallığa söykənməsi, gerçək həyatı əks etdirməsidir: ”Avqust ayının 17-də daşnak ermənilər ”Köçərli məhəlləsində 8 evi yandırıb əhalisini qətlə yetirdilər. Xəlfəli adlanan məhəllədə 10 evin müsəlmanlarının qətl-qəraət edilməsi xəbəri kədərli bir surətdə yetişdi. Qəddar erməni daşnaklarının belə təcavüz və ədalarını görən islam cavanları artıq ruhani və rəislərinin nəsihətlərinə baxmayıb ermənilərə qarşı ümumi hücuma başlayırlar. Ermənilər Port-Artur misalında olan səngərlərini daha saxlaya bilməyib boşaltmağa məcbur oldular Avqustun 18-də daşnak ermənilər dağılmış qüvvələrini bərpa edib yenidən müharibəyə girişdilər Ermənilər çox tələş edib keçən günün təlaşını çıxmaq istəsələr də ağır təlafata məruz qalaraq öz hissələrini müsəlmanlara verdilər”.

”Qanlı sənələr” əsərində yazıçı Şuşada törədilən qanlı toqquşmaları geniş təsvir etmiş, rus kazakları və rus piyada birliyinin, eləcə də erməni daşnaklarının əlbir olub azərbaycanlı evlərinə basqınlar təşkil etməsini, ancaq azərbaycanlıların müdafiəsi qarşısında geri çəkilməyə məcbur olmasını bildirmişdir: ”Daşnak erməniləri başladıqları müharibədə məğlub olduqlarını görüb hiyləyə əl atmağa başladılar. Avqustun 19-da erməni arximandriti və qubernator Baranovski məscidin həyətinə gələrək, müsəlmanlara yalvarmağa başladı: ”Amandı müsəlmanlar Şuşada ermənilər müqəssir olsalar da, daha erməni qalmadı. İndi bir ovuc əlsiz - ayaqsız erməni qalıbdır, onlara rəhm ediniz!” deyib, ağlaya-ağlaya sülh təklif etdi. Müsəlmanlar sülh sözünü eşidən kimi güllə atmağı dayandırıb sakit oldular. Ermənilər isə evə qayıdan qubernatoru atəşə tutdular.

Daşnaklar realnı məktəbin təmirində işləyən 17 nəfər iranlı fəhlənin başını kəsmişdilər. Beləliklə 1905-ci il avqustun 16-da başlayan müharibə, avqustun 21-də sülh elan edilməsi ilə başa çatdı. Bu müharibədə yüzlərlə azərbaycanlı qətlə yetirilmişdi”.

Ordubadinin əsərində diqqətçəkən digər məqam general Qoloşşapa münasibətdir. Onun müsəlmanlara nifrəti, terror hadisələrində ermənilərə kömək göstərməsini yazıçı xüsusi vurğulamış, bu rus generalının qəddarlığını tarixin yaddaşına köçürmüşdür: ”Qoloşşapovun müsəlmanlara iblis münasibəti bəslədiyini anlayan ermənilər hər an bir bəhanə axtarırdılar ki, generalı müsəlmanların üstünə qaldırsınlar. 1906-cı ilin iyul ayının 12-də bir neçə gün bundan qabaq ölmüş bir erməninin meyitini generala nişan verib, ”budur bu saat sənin qonşuluğunda müsəlmanlar qətlə yetirmişlər” deməklə, onsuz da bəhanə axtaran general Qoloşşapov dərinə getməyib, Köçərli məhəlləsini topa tutmaq əmrini vermişdir. Bunun ardından Kazak dəstələri ilə birlikdə 10.000-ə qədər daşnak dəstələri azərbaycanlılara qarşı hücuma keçdilər.

Dava başlayanda ermənilərə və ruslara qarşı vuruşan ancaq Qalada yaşayan müsəlman igidləri və cavanları idi. Onlara yalnız 3 gündən sonra kömək gəlmişdi.

Ruslar və ermənilər qarşılarına çıxan insanları gülləleyir, onları ölmüş halda ya da diri-diri alova atıb yandırırdılar. Şuşada toplardan açılan atəş nəticəsində minlərlə ev dağıdılmış, yüzlərlə insan qətlə yetirilmişdir”.

”Qanlı sənələr” 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi aspektlərini öyrənməyə imkan verən aktual bir əsərdir və bu gün də milli yaddaş problemlərimizin çözümü və məsələlərə yaradıcı münasibətin öyrənilməsi baxımından mühüm ictimai-tarixi əhəmiyyət daşıyır.

## Mir Möhsün Nəvvabın ”1905-1906-cı illərdə erməni-müsəlman davası” əsərində erməni vəhşiliklərinin apokaliptik mənzərəsi

Mir Möhsün Nəvvabın son dövrdə aşkarlanaraq ilk dəfə 1993-cü ildə nəşr edilmiş ”1905-1906 illərdə erməni-müsəlman davası” kitabı müəllifin yaşadığı dövrün mürəkkəb və keşməkeşli hadisələrə fəal vətəndaş mövqeyini əks etdirməklə yanaşı, onun vətənpərvər ədib obrazını ifadə edən mətn kimi qiymətlidir. ”Təvarixi-rəzm və şurişi-taifeyi-əraməniyyeyi-Qafqaz ba firqeyi-müsəlmanan” (”Qafqaz erməniləri tayfasının müsəlmanlarla savaş və iğtişaş tarixləri”) adlandırdığı bu kitabı Nəvvab real faktlar əsasında qələmə almış, ermənilərin 1905-1906-cı illərdə xalqımıza qarşı törətdiyi vəhşilik və cinayət əməllərini, mənfur niyyətlərini tam gerçəkliyi ilə əks etdirmişdir.

Türkcə qələmə aldığı bu əsərinin əvvəlində müəllif Şuşa qalasının Pənah xan tərəfindən inşa edilməsi və onun varisi İbrahim Xəlil xanın başına gətirilən müsibətlər haqqında qısa bilgilər verir, sonra isə erməni-müsəlman davasının tarixçəsinə nəzər salır. Yazıçı hadisələrin başlanğıc məqamına diqqət yönəldərək yazır: ”Ermənilər təpədən dırnağa qədər silahlandırılırdı. Erməni daşnaklar müsəlmanlarda olan silahı ələ keçirmək üçün belə bir hiylə işlətmişlər. Tüfəng bazarda 20 manata satılırdısa, onlar 100 manata, tapança 6 manata satılırdısa, 30 manata alırdılar. Nəticədə müsəlmanlarda olan silahların ermənilər tərəfindən belə baha qiymətə alınması, müsəlmanların evlərində nə qədər silah sursat var idisə, tamamən ermənilərin əlinə keçməsinə səbəb oldu”.

16 avqust 1905-ci ildə ermənilərin Şuşada yenidən hücumu ilə bağlı M.M.Nəvvab tükürpədici faktlar qələmə almışdır: ”Erməni qımdatları dəstə-dəstə olub bir dəstə Köçərli məhəlləsinə, bir dəstə Yuxarı Xəlifəli qapısına, başqa bir dəstə isə meydana tərəf getdilər. Qalan ermənilər isə səngərlərə doldular Köçərli məhəlləsinə gedən dəstənin içərisində bu məhəllədən olan Çopur bəyin oğlu və Kolya adlı iki erməni 90 yaşlı Abbas bəyi, onun yeganə oğlunu, qardaşı oğlunu dilə tutaraq siz bizim qonşumuzsunuz, sizinlə işimiz yoxdur deyib eşiyə çağıraraq güllələmişlər, evlərinə və meyidlərə neft töküb yandırmışlar”.

Mir Möhsün Nəvvabın ”1905-1906-cı illərdə erməni-müsəlman davası” əsəri törədilən cinayətin, azərbaycanlıların başına gətirilən amansız müsibətin çalarlarını geniş əks etdirən əsərdir. Baş verən fəci proseslərin ictimai-sosial mühitdə doğurduğu əks-sədalar, insanların mənəvi-psixoloji aləmindəki buraxdığı dərin izlər, ağrı-acıların yüksək estetik çalarlarla təsviri yazıçı müşahidəsinin itiliyindən xəbər verir. Nəvvab 1905-1906-cı illər hadisəsindən bəhs edən əsərində daşnak terror birləşmələrinin Qarabağın müxtəlif rayonlarında həyata keçirdikləri kütləvi basqın, soyqırım, qarət faktı ilə bağlı önəmli məlumatlar açıqlayır. Şuşada azərbaycanlılar yaşayan evlərin top atəşinə tutulması, basqın və talanlar, yandırılan evlər, insanlara tutulan divanlar, başı kəsilən insanlar, südəmər körpələrin divarlara çırpılıb param-parça edilməsi, bir sözlə, tarixdə misli görünməmiş türk qətliamı.

Məmməd Səid Ordubadi kimi Mir Möhsün Nəvvab da müsəlmanların öldürülməsində Rusiya tərəfindən Qarabağa və Şuşa uyezdinə təyin edilən generalların da fəal iştirak etdiyini qeyd edir: ”Bunlardan general Qoloşşapov daha qəddar idi. Qoloşşapov Şuşaya gələn kimi ermənilər məhəlləsində milliyyətcə erməni olan duma qalavası Kiki Kələntərovun hazırladığı iqamətgaha yerləşdirildi. Hər gecə Kiki Kələntərovun başçılığı ilə, ermənilərin hesabına general Qoloşşapovun mənzilində kef məclisləri qurulur. Kələntərovun seçdiyi və generalın qulluğuna təyin etdiyi 2-3 nəfər xoşsurət erməni qızları gecə-gündüz ona xidmət edirdilər. Bir gecə erməni Kələntərov Qoloşşapova 10.000 rubl rüşvət verərək, erməni-müsəlman davasında rusların onlara açıq surətdə kömək etməsini generaldan xahiş etdi. Qoloşşapovun tədbiri ilə ətraf kəndlərdən, İrəvandan, Gəncədən və başqa yerlərdən 7.000 erməni silahlıları, 850 nəfər rus kazakları, neçə min Qalada (Şuşada) olan erməni, eləcə də 11 top və topxana səfərbər edilmişdi”.

Əsərdə Şuşa od içində təsvir edilir. Su yerinə axan qanlar, yandırılan evlər, məscidlər, insanlar, ah-nalə səslərinin göyə bülənd olduğu əzablı şəhər. Qəddarlığın son həddini yaşayan Şuşa tarixin növbəti sınağının ən ağırı ilə üz-üzə qalmalı olur. Nəvvab od içində qalan Şuşanın tarixi mənzərəsini belə canlandırır:

- ”O evin ətrafında qəbristanadək od vurdular. Külək vasitəsilə ətraf evlərdən Cəmşid bəyin evinə də od düşüb yandı. Bəhram bəy və Qriqor bəyin evləri də alovların cənginə keçdi”;
- ”Müsəlman səngərlərinin qarşısında olan həmin evlərin divarların linglə deşib içəri daxil olub, od vurub yandırdılar”;
- ”Evlərə düşmüş yangın artıq gəlib Təzə kilsənin ətrafına çatmışdı”;
- ”Yanan evin və dükanların alovu və tüstüsü kəhkəşana yetişmişdi. Həmin günün gecəsi yanan evlərin işığına neçə mil məsafədə kağız yazıb oxumaq mümkün idi”;
- ”Ərşə qalxan alov ətraf kəndlərdən və qayalardan görünürdü”;
- ”Xüsusən taxtalarla dolu olan bir neçə dükanın alovu fələyin yanına qalxmışdı. Belə ki, həmin dükanların alovu dörd ağac məsafədən görünürmüş. Kərgicahan kəndinin adamları deyirdi ki, həmin gün yanğın vaxtında saysız - hesabsız yarım yanmış kağızlar dalbadal kəndin üstünə tökülürdü”.

Nəvvab əsərində sanki apokaliptik bir mənzərə yaradır. Miqyasına görə hüdudsuz şəkil alan alov, atəş, yanğının göz önündə vizuallaşması üçün gərəkli təfərrüatlara varır. Hadisələrdəki gerçəklik effektinin lazımı şəkildə ötürülməsi baxımından bu cür təfərrüatların rolu əlbəttə ki, çox böyükdür. Bu, hər şeydən əvvəl yazıçının öz içindəki can yanğısının nümunəsi kimi təcəssümlənir.

Və nəhayət, bir istixarəyə inanmaq: ”Bütün düşmənlər sizin ayağınızın altındadır”

Əsərin ”Erməni tayfasına nəsihətlər” adlanan xüsusi bir bölümündə yazıçı ermənilərə Allahı düşünməyi, Allahdan qorxmağı, zülmdən, vəhşilikdən əl çəkməyi tövsiyə edir: ”Mən bilmirəm fitnə-fəsad törədib xalqı qırğına verən bu erməni quldurları o dünyada sorğu-sual zamanı adil Allaha nə cavab verəcəklər?

Bu qədər zülm, sitəmkarlıq, insafsızlıq və özbaşınalıqla bu əyalətdə bayrağınızı qaldırmaq istəyirsiniz. Lakin ona nail olmayacaqsınız... Bunu yəqin bilin ki, bu zülmlərin əvəzi çox tezliklə onu törədənlərdən çıxılacaq”.

Bunu, erməni vəhşiliyi qarşısında haqqın qələbəsinə inanan, onların məğlubiyyətə düçar olacaqlarına fəhmi ilə əmin olan Azərbaycan yazıçısının uzaqgörənliyi də adlandırmaq olar. Əsərdə bu uzaqgörənliklə bağlı günümüzlə səsləşən ibrətamiz daha bir məqam var. Ermənilərin evini yandıracağından bərk narahat olan yazıçı bunun üçün istixarə edir (istixarə ərəb dilində ”xeyir istəmək” mənasında işlənir və əsasən ”Qurani - kərim”, təsbeh və rüqə (rüşk) vasitəsi ilə yerinə yetirilir): ”Bu gecə əyləşib diqqətlə sual etdim ki, bu davada fəth, nüsrət və qələbə müsəlmanlarda olacaq, yoxsa erməni tayfası ilə?” Ardınca müəllif istixarədən ümidverici cavabın çıxdığını yazır: ”Qələbə yaxın günlərdə sizinlədir. Bütün düşmənlər sizin ayağınızın altındadır”. Tarix Nəvvabın istixarəsinin doğruluğunu isbat etmək üçün 114 il gözlədi. Sözsüz ki, Şuşa müdrikinin özü buna inanmışdı. Kaş ermənilər də inanaydılar.

# 31 Mart soyqırımından
# 105 il ötür...

Tarixin müxtəlif dönəmlərində, 70 il sovet dövründə yaşadığımız zamanda Azərbaycan xalqının tarixi saxtalaşdırılıb və bir çox məqamlar qaranlıq qalmışdır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra tarixin oxunmamış səhifələri aşkarlandı və ölkəmizin tarixinin araşdırılmasına və yaşanılan ictimai-siyasi proseslərin üzü çıxarılmasına geniş meydan verildi. Hər zaman təbii sərvətləri və strateji-coğrafi mövqeyinə görə, güclərin diqqət mərkəzində olan Azərbaycan təzyiqlərə məruz qalaraq mücadilə edib və öz azadlığı, müstəqilliyi uğrunda qanlı savaşlarda olub. Gərgin ictimai-siyasi proseslərdə xalqın müstəqillik arzusu və mübarizəsi heç vaxt tükənməyib. Ölkəmizin çoxəsrlik tarixində 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik, parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması yeni səhifə oldu. AXC müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərib, onlar üçün nümunə oldu. AXC qısa müddətdə genişmiqyaslı demokratik islahatlar həyata keçirib və xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, həmin dövr üçün mütərəqqi hesab edilən dövlət təsisatlarının yaradılmasına nail oldu. Cümhuriyyət dövründə xalqımızın taleyinə ciddi təsir edə biləcək qanun və qərarlar qəbul olundu və milli ordumuzun yaradılması, atributlarımızın, dövlət dilimiz haqqında qanunun qəbul olunması, maarif və səhiyyə sahəsində geniş tədbirlərin həyata keçirilməsi, Azərbaycanın sərhədlərinin və təhlükəsizliyinin təmini istiqamətində böyük işlər reallaşdı. Azərbaycan Xalq Cümhuriyyəti elan olunandan sonra xarici qüvvələr onun devrilməsi üçün bütün imkanlardan istifadə etməyə çalışarkən Osmanlı Türkiyəsinin göstərdiyi hərbi və siyasi yardım milli dövlətçilik tariximizdə çox mühüm rol oynadı.



## 30 MARTDAN 4 APREL TARİXİNƏ QƏDƏR MİNLƏRLƏ DİNC AZƏRBAYCANLI MİLLİ MƏNSUBİYYƏTİNƏ GÖRƏ MƏHV EDİLİB

Təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub. Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirilib. Azərbaycanlılar tədricən doğma torpaqlarından qovulub, onların ərazilərində başqa ölkələrdən köçürülmüş ermənilər məskunlaşdırılıb. Azərbaycanlılara qarşı yeridilən soyqırımı siyasətinin tarixini ardıcılıqla izləsək, görərik ki, hadisələr eyni ssenari əsasında baş verib. Ötən əsrin əvvəllərində - 1905-1906 illərdə İrəvan və Gəncə quberniyalarının 200, Şuşa, Cəbrayıl və Zəngəzurun isə 75 azərbaycanlı kəndini ermənilər talan ediblər. Hadisələrin davamı olaraq 1918-ci ilin mart ayında soyqırımı törədiblər. 30 martdan 4 aprel tarixinə qədər ermənilərin törətdikləri cinayətlər nəticəsində minlərlə dinc azərbaycanlı milli mənsubiyyətinə görə məhv edilib. Bu erməni vəhşiliyinin nəticəsində baş verir. Ermənilər evlərə od vurub, insanları diri-diri yandırıblar. İnsanlığa sığmayan bir vəhşilik törədiblər. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri də dağıdaraq, Bakının böyük bir hissəsini xarabalığa çeviriblər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilib. Onu da qeyd edək ki. erməni vandallığının nəticəsində azyaşlılar və silahsız qadınlar xüsusi qəddarlıqla qətlə yetirilib. Tarixi mənbələrdə qeyd olunur ki, ermənilər Şamaxı qəzasında 1653-ü qadın və 965-i uşaq olmaqla ümumilikdə 7000-dən çox insanı soyqırıma məruz qoymuşdular. Şamaxıda 58, Quba ərazisində 122, Qarabağın Dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan Quberniyasında 211 kənd yerlə yeksan olunub. Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu köməyə gəlməsəydi, bu qırğının miqyası daha dəhşətli olardı. Daşnak quldur dəstələrinə qarşı vuruşlarda 5 min azərbaycanlı və min nəfərədək türk həlak olmuşdur.



Tarixi dəlillər: ermənilərin qəddar, vəhşi və vandal əməlləri

## SOYQIRIMI HADİSƏLƏRİNƏ SİYASİ QİYMƏT VERİLDİ

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmiş, Şamaxıdakı vəhşiliklər, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətlər araşdırılmışdı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilsə də, cümhuriyyətinin süqutundan sonra həmin proses dayandırılıb, baş verənlərin sona qədər tədqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınıb.

Hadisələrə 80 il sonra - 1998-ci il martın 26-da Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda siyasi-hüquqi qiymət verilib. Beləliklə, 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib. Fərmanda qeyd olunur ki. Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir: "Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".









## “ŞAUMYAN VƏ ONUN KİMİLƏRİ BİZƏ QƏHRƏMANLAR KİMİ TƏQDİM EDİLİRDİ”



Son illər aparılmış araşdırmalar nəticəsində faktlar və sənədlər üzə çıxarılıb. Quba şəhərində tapılan kütləvi məzarlıq erməni vəhşiliyini dünyaya təqdim etdi. 1918-ci ilin aprel-may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə məhv edilib. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilib və Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqat nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdiyi soyqırımı ilə bağlı olduğu müəyyən edilib. Tədqiqat işlərinin nəticəsi olaraq məzarlıqda müxtəlif yaş qruplarına aid 400-dən çox insan cəsədinin qalıqları aşkar edilib. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara, qalanları isə əsasən yaşlı kişilərə aiddir. Müəyyən edilib ki, məzarlıqda azərbaycanlılarla bərabər, Qubada yığcam halda yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilərək basdırılıb. Bu tarixi dəlillər ermənilərin qəddar, vəhşi, vandal olduğunu bir daha təsdiqləmiş olur. Həmin ərazidə Quba Soyqırımı Memorial Kompleksi yaradılıb. 2013-cü il sentyabrın 18-də keçirilən açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışı zamanı sovet dövründə tarixin təhrif edildiyi üçün bu həqiqətlərin bizdən gizlədildiyini qeyd edib: ”Uzun illər Azərbaycan xalqının qanını axıdan quldurlar, - onların da mənfur adları orada göstərilir, - Şaumyan və onun kimiləri bizə qəhrəmanlar kimi təqdim edilirdi. Hesab edirəm ki, bu, böyük faciədir. Çünki uzun illər xalqımıza qarşı amansızlıqla vəhşilik törədən ünsürlər sovet tarixində qəhrəman kimi təqdim edilirdi, onların şərəfinə abidələr ucaldılırdı. Yalnız müstəqillik dövründə biz həqiqi ədaləti bərpa etdik. Gözəl şəhərimizi, Bakımızı o abidələrdən təmizlədik və bu gün o yerlərdə gözəl parklar, o cümlədən Sahil parkı yaradılıbdır. Yəni, tarix, ədalət zəfər çaldı”.





## 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMINDAN 105 İL ÖTÜR

1988-ci ildən başlayaraq erməni millətçiləri azərbaycanlıları Ermənistandan qovmağa, Qarabağı isə Azərbaycandan ayırmağa başladılar. Soydaşlarımız - 250 min azərbaycanlı öz ev-eşiyindən, tarixi torpaqlarından qovulur. 1988-ci ildən sonra Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində 7 rayon talan olundu, 1 milyona qədər adam doğma yurdundan didərgin düşdü. 17 fevral 1992-ci ildə Ermənistan ordusu tərəfindən 90 azərbaycanlı qətlə yetirildi. Ağdaban soyqırımı 8 aprel 1992-ci il tarixində törədildi və Ermənistan ordusu tərəfindən 67 azərbaycanlı qətlə yetirildi. Tarixdə belə faktlar kifayət qədərdir ki. ermənilərin xalqımıza qarşı törətdikləri vəhşi əməlləri təqdim edir.

Tarixən Azərbaycan xalqına qarşı soyqırım siyasəti həyata keçirən erməni millətçiləri öz vəhşi simalarını bir daha bütün dünyaya nümayiş etdirərək Xocalını yerlə-yeksan etdilər. Xocalı soyqırımı erməni terrorizminə, onların işğalçılıq siyasətinə, insanlığa sığmayan əqidə və məsləkinə qarşı dərin nifrət hissi oyadır. Xocalıda terror əməliyyatının planı əvvəldən hazırlanmışdır. Xocalıda erməni terrorizminin amansızlığını təsdiq edən faktlardan biri də odur ki, terror əməliyyatı zamanı istifadəsi qadağan olun xüsusi təhlükəli kütləvi qırğın silahlarından geniş istifadə edilmişdi.

Artıq 31 Mart Azərbaycanlıların soyqırımından 105 il ötür. Soyqırımı qurbanlarının əziz xatirəsini dərin hüzn və ehtiramla yad edirik.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Aprel döyüşləri:
## 4 günlükdən 44 günlüyə Zəfərlə!



### İşğalçı Ermənistanın "qaliblik" stereotipi məhz onda məhv edildi

Tariximizə qalibiyyət ruhu kimi yazılan Aprel döyüşlərinin başlamasından 7 il ötməkdədir. Məhz 1 aprel 2026-cı ildə torpaqlarımızı işğal altında saxlayan Ermənistanın növbəti təxribatına cavab olaraq başladılan əks-hücum əməliyyatı nəticədə Lələtəpə yüksəkliyi daxil olmaqla mühüm strateji yüksəkliklərin azad edilməsi ilə nəticəsini tapdı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Silahlı Qüvvələrimizin düşmənə sarsıdıcı zərbə endirməsi və cəbhə boyunca irəliləməsi isə gözünü belə açmağa imkan tapmayan düşmənin böyük itkilər verərək geriyə çəkilməsi, qaçması ilə başa çatdı.

### Qarabağın tam azad edilməsi üçün düyməyə basılmışdı və bu düymə məhz 2016-cı ilin 1 aprel tarixində işə salınmışdı

Artıq həmin vaxtdan məlum idi ki, Aprel döyüşləri növbəti qələbələrə açılan yeni cığır idi və bu cığırla əzəli torpaqlarımıza doğru gediləcəkdi. Əslində gedilirdi, sadəcə, Ermənistan hakimiyyətinin beynəlxalq dairələrin ayaqları altına düşərək boğazını güclü Azərbaycan Ordusunun cəngindən qurtarması üçün yalvarışlara əl atması bu məsələni bir müddətlik təxirə saldı. Lakin Qarabağın tam azad edilməsi üçün düyməyə basılmışdı və bu düymə məhz 2016-cı ilin 1 aprel tarixində işə salınmışdı.

Onu da qeyd edək ki, Aprel döyüşləri Qarabağda 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan bəri ən şiddətli döyüşlər idi. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olunmuşdu.

### Məhz 2016-cı ilin 4 günlük müharibəsi 2020-ci ilin 44 günlük Vətən müharibəsinə doğru atılan ilk addım oldu

Və bu gün biz fəxrlə xatırlayırıq ki, 4 günlük hərbi əməliyyatlardan sonra Ali Baş Komandan, Prezident İlham Əliyev azad olunmuş ərazilərimizə səfər edərkən növbəti zəfərlərin anonsunu verirdi, "Azərbaycan xalqı



heç vaxt torpaqlarının işğal altında qalması faktı ilə barışmayacaq" bəyanatı da buna danılmaz sübut idi!

Bu döyüşlərdə şəhidlərimiz də oldu və onlar adlarını tarixə yazmaqla həm də növbəti qələbə yoluna çıxacaq əsgərlərimizin, zabitlərimizin qəlblərində qisas ruhunu bəxş etdilər. Məhz 2016-cı ilin 4 günlük müharibəsi 2020-ci ilin 44 günlük Vətən müharibəsinə doğru atılan ilk addım oldu.

O da əbəs deyil ki, 2016-2020-ci illər arasındakı 4 illik müddətdə də Azərbaycan Silahlı Qüvvələri addım-addım işğal altındakı torpaqlarımızın azad edilməsi istiqamətində irəliləyib. Günnüt zəfəri də bu silsilədəndir. Belə ki, 2018-ci ilin mayında Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad olundu.

### Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev verdiyi bütün vədlərini yerinə yetirdi!

Əldə edilən qalibiyyətlərdən sonra - 2018-ci il iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirildi. Həmin paradda 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad olunmuş torpaqlarda qaldırılmış Azərbaycan bayraqları nümayiş etdirildi. Paradda çıxış edən Prezident İlham Əliyev onda da mühüm bəyanat səsləndirdi: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək".

Müzəffər Ali Baş Komandanımız verdiyi bu vədini də yerinə yetirdi. Azad edilmiş torpaqlarda qaldırılmış Azərbaycan bayraqları 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında - Vətən müharibəsində qazanılmış Qələbəyə həsr olunmuş Zəfər paradında, düşmən qənimətlərinin başı üzərində nümayiş etdirildi.

*Rövşən RƏSULOV*



# VOMA terror qruplaşması:

## azyaşlı erməni uşaqları qatil kimi yetişdirilir!

### Ermənistanda faşizm ideologiyası hakimiyyət səviyyəsində təbliğ olunmaqdadır



**BİRİNCİ YAZI**

Mövzunu tanınmış erməni blogeri, Azərbaycanla sülhün bərqərar olması üçün səsləndirdiyi ədalətli çağırışlarına görə Ermənistanda davamlı olaraq təhdidlərə məruz qalan İşxan Verdyanın fikirləri ilə başlamaq yerinə düşərdi. Belə ki, Ermənistan cəmiyyətində faşizm xarakterli daşnak və terror siyasəti bu gün də qüvvədə qalmaqdadır.

Bu gün Ermənistanda İkinci dünya müharibəsi dövründə Hitler Almaniyasının əlaltısına çevrilmiş njdeçilik ideologiyasının yaşadılması da, əslind,ə belə qənaətə gəlməyə zəmin yaradır ki, bu ölkədə mövcud olan daşnakçılıq siyasəti faşizmlə paralellik təşkil edir. Həmçinin, qonşu ölkələrin ərazilərinə olan iddialar da nəticə etibarı ilə bu həssas regionu yarana biləcək növbəti təhlükələrdən sığortalamır.



### İşxan Verdyan: "Belə bir təəssürat yaranır ki, ölkə tamamilə faşizmlə nəfəs alır"



Bu baxımdan, İşxan Verdyan bildirib. SİTAT: "Problem onda deyil ki, bütün ermənilər daşnakçılıq ideologiyasını bölüşürlər - əslində, bu, doğru deyil, onların əksəriyyəti "dənizdən-dənizə" ideyası ilə yaşamırlar. Problem ondadır ki, ermənilərin çoxu kiçik istisnalar olmaqla bu ideologiyaya qarşı deyillər. Bu cür olan halda belə bir situasiya yaranır ki, döyüş ruhunda olan təxribatçılar İrəvanın mərkəzində faşizmi rahatlıqla təbliğ edə bilərlər. Və bu, yerdə qalan əhalinin loyallığı, həmçinin, hüquq-mühafizə sisteminin fəaliyyətsizliyi çərçivəsində baş verə bilər. Belə bir təəssürat yaranır ki, ölkə tamamilə faşizmlə nəfəs alır. Mən inanıram ki, Ermənistanda faşizm təbliğatına qadağa qoyulan kimi, yəni dövlət özünü dövlət kimi göstərən andan ölkədə çox şey dəyişiləcək. Və biz burada ölkənin əsas problemini görürük - Paşinyan hökumətinin həmin problemi birdəfəlik inkar etməsini".



Əslində, İşxan Verdyanın həqiqəti, danılmaz reallığı əks etdirən bu fikirləri də göstərir ki, Ermənistanda hansı siyasi baxışlı dairələrin iqtidarda olmalarına rəğmən, ölkədə istər Daşnaksyutyun, istər Qaregin Njde, istərsə də ASALA, Yerkrapa, Hnçak, Vrej və s. ideologiyaları özlərini bütövlükdə faşizm xarakteri ilə birləşdirib. Təkcə bir faktı qeyd edək - bu gün İrəvann mərkəzində faşizmin əsas cəlladlarından biri olan Qaregin Njdenin hündür abidəsi dayanır (?!-R.R.)

### Terrorçu yetişdirən VOMA Ermənistandan sonra Qarabağda da fəaliyyətə başlayıb

Və bu gün Ermənistanın müxtəlif bölgələrində çoxsaylı "hərbi hazırlıq" adı altında düşərgələr fəaliyyət göstərir ki, həmin düşərgələrdə, əslində, növbəti zamanlara terrorçu nəsillər yetişdirilir. Məqsəd bəllidir - revanşizm, qisas və qonşuların ərazilərinə olan iddiaları reallaşdırmaq cəhdləri. Bu, faktiki olaraq terrorçuluq siyasətinin fərqli nümunəsidir. Belə təşkilatlardan biri də VoMA-dır.



Maraqlısı da budur ki, 44 günlük müharibədən sonra yoxa çıxan bu yarı hərbi qurumun yenidən aktivləşməsi müşahidə edilir. Üstəlik, yalnız Ermənistanda deyil, həmçinin Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarəti altında olan Qarabağ ərazilərində, yəni separatçıların, qanunsuz silahlı dəstələrin olduğu yerlərdə.





Xatırladaq ki, bu hərbiləşdirilmiş qruplaşmanın fəaliyyəti Beynəlxalq məhkəmənin də diqqətini cəlb edib. Bu instansiyanın 2021-ci ilin 7 dekabrında adıçəkilən qruplaşma ilə bağlı çıxardığı müvafiq qərarına baxmayaraq, Ermənistan VoMA-nı və onun kimi digər təşkilatı - POGA-nı ləğv etməyib.

Bundan əlavə, diqqətçəkən faktlardan biri də budur ki, adıçəkilən qruplaşmalara azyaşlı uşaqlar cəlb edilirər. Yeri gəlmişkən, bununla bağlı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun BMT-nin baş katibinə yazdığı rəsmi məktubunda da bildirilir. Bildirilir ki, BMT-nin Baş Assambleyasının Təhükəsizlik Şurasının sənədində bütün irqçi diskriminasiyaların ləğv edilməsi ilə bağlı qəbul olunmuş Beynəlxalq konvensiyaya rəğmən adıçəkilən qruplaşmalar fəaliyyətlərini davam etdirirlər. Bütün bunlardan sonra VoMA-ya bağlı rəhbər şəxslər inadla iddia etməyə başladılar ki, bu qurum müstəqildir və rəsmi İrəvana bağlı deyil. Ancaq buna baxmayaraq, faktlar tamamilə fərqli məqamları əks etdirir. Üstəlik, bu faktlar məhz VoMA-nın rəsmi resursları tərəfindən təqdim olunub. Həmçinin, üçüncü tərəf də var ki, onlar nüfuzlu Le Fiqaro və Mirrorspectator nəşrləridirlər.



### VOMA azyaşlı uşaqları silahlandırır



Azyaşlı uşaqların adıçəkilən qruplaşmaya cəlb edilməsi faktında Ermənistanın millətlərarası münasibətləri qızışdırmaq siyasəti dayanır və bu danılmazdır. Lakin daha bir fakt budur ki, hətta azyaşlı uşaqların öz istəkləri ilə VoMA-ya üzv yazdırılması belə onların hüquqlarının pozulması anlamını daşıyır. Daha dəqiq desək, bu fakt uşaqların beynəlxalq sənədlərdə qeyd edilmiş hüquqlarını birmənalı olaraq pozur.

Misal üçün, sənədlərdə qeyd edilmiş və qəbul olunmuş prinsiplərdə vurğulanır ki, Cenevrə Konvensiyasının 1949-cu ildə qəbul edilmiş bəndlərinə görə, uşaqlar silahlı münaqişələrdə müdafiə olunmalı və onlar hər hansı hərbi məqsədli işlərə cəlb edilməməlidirlər. Bu barədə Cenevrə Konvensiyasna 1977-ci ildə digər protokollar da əlavə edilib. 1989-cu ildə qəbul edilmiş uşaqların hüquqları Konvensiyasında və 2000-ci ildəki Fakultativ protokolda da vurğulanıb ki, uşaqların hərbi münaqişələrdə iştirakları qadağan edilir.



Əlavə protokolun 77-ci bəndinə əsasən vurğulanır: "Uşaqlar xüsusi qayğı obyekti olmalı və onlara qarşı istənilən uyğunsuz cəhdlərin qarşısı alınmalı, uşaqlar müdafiə olunmalıdırlar". Göründüyü kimi, Ermənistan bu qərarların heç birinə, ümumiyyətlə, məhəl qoymur.



Bəs nə baş verir? Ermənistan nəinki indiki zamanda, ümumiyyətlə, onilliklər boyunca, hətta müstəqillik qazandıqdan dərhal sonra uşaqların münaqişələrdə istifadə edilməsi metodundan geniş şəkildə yararlanıb. Belə bir siyasət xüsusi təşkilatçılıq və sistematiklik sayəsində reallaşdırılıb.

VoMA, POGA kimiqruplaşmalar həm müharibədən əvvəl, həm də sonrakı dövrlərdə Ermənistanda və separatçıların qaldıqları Qarabağ ərazilərində ardıcıl fəaliyyətlərini davam etdirməkdədirlər. Və maraqlı məqamlardan biri də budur ki, həmin ərazilərə yalnız Ermənistandan olan uşaqlar deyil, həm də digər ölkələrdən cəlb edilmiş azyaşlı uşaqlar da cəlb olunurlar. Bu məsələdə xarici ölkələrdə güclü fəaliyyəti ilə seçilən erməni diasporu da ayrıca feal canfəşanlıqlar göstərir.



Xatırladaq ki, "Əsgər uşaqlar" Beynəlxalq təşkilatı özünün 2008-ci ildə hazırladığı hesabatında bir diqqətçəkən faktı önə sürüb. Bildirilib ki, İrəvanın şəhərətrafı kasıb qəsəbəsində fəaliyyət göstərən məktəblərin birində hərbi hazırlıq dərsləri daha tez başlayıb. 11-12 yaşlarında olan 18 oğlan uşağının və 6 qız uşağının təhsil aldıqları sinifdə hərbi hazırlıq dərsrlərinə başlanılıb. Xüsusilə, ata-anasız olan yetim uşaqların hərbi hazırlığa cəlb edilmələri "məktəb intizamının yaxşılaşdırılması" adı altnda gizlədilib.



Bu faktlar isə sübut edir ki, Ermənistanda hansı iqtidarın olmasına baxmayaraq, VoMA və s. kimi hərbiləşdirilmiş silahlı təşkilatların fəaliyyəti dövlət və hakimiyyət səviyyəsində dəstəklənir. Əgər belə olmasa idi bu qruplaşmaların fəaliyyətlərinə birdəfəlik son qoyulardı. Lakin göründüyü kimi, bu, heç də belə deyil...

(Ardı var)

***Rövşən RƏSULOV***

# Ər-arvadın birlikdə içki içməsi niyə qınanılır?

***Artıq günümüzdə bir çox kişilərlə yanaşı qadınlarda da alkoqol asılılığı artmaqdadır. Qərb cəmiyyətlərində alkoqol istehlakı, əsasən, kişilər arasında yayılıb. Bunlarla yanaşı, indi içki içmək nisbətində qadınlar kişiləri geridə qoya bilərlər.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.




## Alkoqolla əlaqəli sağlamlıq problemləri artmaqdadır



Spirtli içkilərlə bağlı problemlər qadınlar arasında da yayılmaqdadır. ABŞ-da 2000-2015-ci illər arasında 45-64 yaş qrupunda sirozdan ölümlərin artım nisbəti kişilərdə yüzdə 21 ikən, qadınlarda bu nisbət yüzdə 57 olmuşdur. 25-44 yaş qrupunda eyni səbəbdən ölümlərdə artım kişilərdə yüzdə 10 ikən, qadınlarda yüzdə 18 oldu.

Bundan əlavə, həddindən artıq spirtli içki qəbulu ilə bağlı problemlər səbəbindən xəstəxanaların ilk yardım xidmətlərinə müraciət edən yetkin qadınlar arasında böyük artım var. Amma problem təkcə qadınların daha çox spirtli içki qəbul etməsində deyil, spirtin qadın orqanizminə təsirinin kişilərdən çox fərqli olmasıdır.

Tədqiqatlar göstərir ki, alkoqolun emal edilməsi üçün qaraciyərdə istehsal olunan spirt dehidrogenaz (ADH) fermenti qadınlarda daha azdır. Bundan əlavə, su spirtin yayılmasını asanlaşdırarkən, yağ spirti saxlayır. Qadınlarda daha çox yağ və daha az su olduğu üçün bədənin spirtə reaksiyası çox daha şiddətlidir.

## Qadınlar daha asan aludəçi olurlar

Alkoqol asılılığı və digər sağlamlıq problemləri kişilərə nisbətən həddindən artıq spirtli içki qəbul edən qadınlarda daha asan inkişaf edir. Alkoqol problemi olan qadınlar kişilərə nisbətən daha gec yaşda spirtli içki qəbul etməyə başlasalar da, daha qısa müddətdə alkoqol aludəçisi olurlar. Alkoqolun təsiriylə qaraciyər xəstəlikləri, ürək və sinirlərin zədələnməsi qadınlarda daha tez baş verir.



Əslində, 1990-cı illərə qədər spirtlə bağlı demək olar ki, bütün klinik tədqiqatlar yalnız kişilər üzərində aparılırdı. Bu araşdırmaların nəticələrinin qadınlar üçün də keçərli olacağı güman edilirdi.

1970-ci illərdə Harvard Universitetində alkoqolun qadınlara təsiri mövzusunda fəlsəfə doktoru olan psixiatriya professoru Şaron Uilsnakın tapıntılarından biri də alkoqol problemi olan qadınların uşaqlıqda tez-tez cinsi istismara məruz qalması idi.

## Alkoqol qadınların ehtirasını artırır?

Az dozada qəbul edilən spirtin rahatlaşdırıcı təsiri ilə ilk başlarda cinsi istəyi artırdığını söyləmək olar. Lakin daha yüksək dozalarda qəbul edildikdə bu təsir olmaz. Məlum olub ki, spirtli içkilərdən istifadə qadınlarda subyektiv cinsi istəyi, oyanışı və həzzi artırır, fizioloji oyanışı isə azaldır.



Qadınlarda spirt istehlakı testosteron və estradiol nisbətlərini artırır. Testosteron qadınlarda cinsi istəyi qismən idarə etdiyi üçün, bu artım spirtin kişilərdən fərqli olaraq qadınlarda cinsi istəyi artırır.

## Beyində həssaslıq

2000-ci illərdə alkoqoliklərin beyin skanları qadınların beyinlərinin spirtə daha həssas olduğunu göstərdi. Lakin Boston Universiteti Tibb Fakültəsinin anatomiya və neyrofiziologiya professoru Marlene Oscar-Berman bir şey hiss etdi. Uzun müddət spirt istifadə edən kişilərin beynindəki "mükafat mərkəzi" spirt istifadə etməyən kişilərə nisbətən daha kiçik idi. Beynin bu bölgəsi motivasiya, qərar qəbul etmə və əsas sağ qalma instinktlərinə təsir göstərir.



Amma mükafat mərkəzi alkoqolsuz qadınlara nisbətən alkoqollu qadınlarda daha böyük idi. Bu o deməkdir ki, alkoqol içən qadınların beyni kişilərə nisbətən daha az zədələnir.

Berman vurğulayır ki, bu tapıntı çox təəccüblüdür, çünki o vaxta qədər spirtli içkilərin qadınların beyninə daha çox zərər verəcəyinə dair geniş yayılmış bir inanc var idi. Ancaq elm adamları bu fərqin niyə yarandığını hələ bilmirlər.

Bir çox qadın istehlak etdiyi spirtin miqdarına nəzarət etsə də, bu miqdarı aşanların sayı da az deyil. Risk səviyyəsində spirt istehlakı sonsuzluğa, menstrual dövrünün pozulmasına, bir çox xərçəng növünün artmasına və yaralanmalara səbəb olur. Həddindən artıq spirt istehlakı səbəbindən nəzarəti itirəcəyiniz üçün cinsi yolla ötürülən xəstəliklərə və ya arzuolunmaz hamiləliyə səbəb olan cinsi əlaqədə ola bilərsiniz.

*Ardı Səh. 13*

# Ər-arvadın birlikdə içki içməsi niyə qınanılır?

Əvvəli Səh.12

## Riskli spirt istehlakı nədir?

Qadınların gündə bir içki içməsi orta dərəcədə spirt istehlakıdır. Riskli spirt istehlakı həftədə yeddi içkidən çox və ya bir anda üçdən çox içki istehlak etməkdir. Amerikada 18 yaşından kiçik hər 5 qızdan biri ən azı bir dəfə bu şəkildə spirtli içki qəbul etdiyini bildirib.

Bəzi qadınların miqdarından asılı olmayaraq spirtli içki qəbul etməsi onları riskli içkilər içən qadınlar kateqoriyasına salır. Belə ki, bu qadınlar:



- Yüngül içki limitində özünü saxlaya bilməyənlər
- 21 yaşdan aşağı
- hamilə və ya hamiləliyin planlaşdırılması
- alkoqol ilə qarşılıqlı təsir göstərən dərmanlardan istifadə edənlər

## Alkoqol sağlamlığınıza necə təsir edir?

Kişi və qadın orqanizmi spirtə fərqli reaksiya verir. Qadın orqanizmində spirti parçalayan maddə kişilərə nisbətən daha azdır, nəticədə onların qanına alkoqol kişilərə nisbətən daha çox keçir. Qadınlar kişilərdən daha yüngüldür və bədənlərində daha az su var. Bu, o deməkdir ki, spirt kişilərdəki kimi onların qanını sulandırmır. Müvafiq olaraq, qadının spirtdən zəhərlənməsi eyni miqdarda içən kişidən daha asandır.



Müntəzəm olaraq riskli spirtli içkilərdən istifadə etmək alkoqolizmdir. Spirtli içkilərə aludə olan qadınlar sağlamlıqlarında, münasibətlərində və ya işlərində problemlər yaratsa belə, spirtli içki qəbul etməyə davam edirlər.

Alkoqolizm bir xəstəlikdir.

**Simptomlar:**

- içməyə böyük həvəs var.
- nəzarəti itirmək - içməyə başladıqdan sonra dayandıra bilməmək.
- asılılıq - alkoqoldan imtina simptomları, məsələn; ürəkbulanma, tərləmə, titrəmə və əsəbilik və bunlar spirtli içki qəbul etdikdən sonra yox olur.

## Hamiləlik dövründə spirt içmək olarmı?

Danimarka alimlərinin BJOD jurnalında dərc etdiyi araşdırmaya görə, hamilə qadınların həftədə 1-8 içki içməsinin heç bir zərəri yoxdur. Lakin bu düşüncə düzgün deyil. Çünki dəqiq olaraq hansı miqdarda və nə qədər qəbul edildiyi və buna uyğun olaraq körpəyə nə dərəcədə zərər verdiyi bilinmir.

Plasenta bədənə daxil olan bütün spirti süzə bilmədiyi üçün spirtin bir hissəsi körpəyə çatır. Bu, körpənin fiziki və zehni inkişafına ciddi ziyan vurur.

Ana olduğunuzu bilmədən içdiyiniz spirt körpəniz üçün zərərli deyil, ancaq hamiləlik xəbərini alan kimi spirt hamiləliyiniz boyunca istehlak etmədiyiniz bir şey olmalıdır.

Bəzi gələcək analar hamiləliyin ilk aylarında spirt istifadəsinin körpəyə daha az zərər verəcəyini düşünürlər. Ancaq alkoqolun körpəyə vurduğu zərər haqqında dəqiq bir şey söyləmək çox çətindir. Ona görə də hamiləlik dövründə spirt limitindən danışa bilmərik. Uşağınız olacağını öyrəndiyiniz ilk gündən spirt istehlakı son dərəcə həssas olmanız lazım olan məsələ olmalıdır.

Alkoqol istifadəsi zamanı növlər arasında hər hansı bir fərq haqqında danışmaq mümkün deyil. Hamiləlik dövründə pivə içmək şərab istehlakı qədər zərərlidir.

## Hamiləlik dövründə spirt istifadəsinin körpəyə təsiri nədir?

- Uşağın ana qarnında tələf olması
- Ölü doğuş,
- Körpənin inkişafında geriləmə,
- Baş və üzün inkişaf qüsurları
- Əqli gerilik.

Oksford və Bristol Universitetlərində aparılan araşdırmalara görə, körpənin qanında spirt səviyyəsi gələcək ananın spirtli içki qəbul etməsi ilə eyni sürətlə artır. Körpənin qaraciyəri böyüklərin qaraciyəri kimi inkişaf etmədiyi üçün spirt körpənin bədənində eyni dərəcədə parçalana bilməz. Bu, körpənin orqanlarının və beyindəki sinir hüceyrələrinin inkişafına mənfi təsir göstərir.

Hamiləlik dövründə spirtdən istifadənin zərərlərindən biri də spirtin körpənin IQ səviyyəsinin 1-2 bal aşağı düşməsinə səbəb olması iddiasıdır. Bu səbəbdən bəzi mütəxəssislər həm hamilə qalmağa çalışan, həm də hamilə olan qadınlara spirtli içkilərdən tamamilə uzaq durmağı məsləhət görürlər.

Hamiləlik dövründə spirtli içki qəbul edən anaların körpələrində doğuşdan sonrakı dövrdə;

- öyrənmə pozğunluğu,
- danışma çətinlikləri,
- diqqət çatışmazlığı,
- yaddaş pozğunluğu,
- hiperaktivlik kimi problemlər görünə bilər.

Gördüyünüz kimi, spirt körpə üçün çox zərərlidir. Buna görə hamiləlik dövründə spirt istifadəsi qətiliklə alınacaq bir risk deyil.

Bütün bunlarla yanaşı günümüzdə öz həyat yoldaşları ilə günlük, yaxud özəl günlərdə içki içən qadınlar da var. Üstəlik əvvəllər ölkəmizdə içki içən qadınlar bunu gizədirdisə, indi açıq aşkar edirlər.

Bəs, dinimizdə bu necə qarşılanır? Ümumiyyətlə, bu düzgündürmü? Cəmiyyətdə belə qadınlara baxış necədir?

**Hacı Təyyar Hüseynli:** "Ümumiyyətlə, İslam dini spirtli içkiləri qadağan edir. Buna əsas kimi Qurani Kərimdə ayələr enib. Bu barədə çox detallı danışmaq olar.



Spirtli içkilərin ailə-məişət mühitində bir çox problemlər yaratdığı, hətta ailələrin dağılmasına gətirib çıxardığı hər kəsə məlumdur. Ər-arvadın spirtli içkidən mütəmadi bir masada oturub istifadə etməsi isə tam bir faciədir. Birinci növbədə bu cütlüyün öz sağlamlığı, aludəçilik riski və övladların tərbiyəsinə mənfi təsir etməsi kimi hallar qaçınılmazdır.

Mən sivil düşüncəli bir ilahiyyatçı kimi spirtli içkilərin kişi və qadın fərqi qoyulmadan qadağan olunmasının tərəfdarıyam".

**Cərrah, mama-ginekoloq Ləman Əliyeva:** "Tək qadınlarda yox, içki hər kəs üçün orqanizmə çox ziyandır. Qaraciyər orqanizmin qoruyucu bir orqanıdır, hansı ki, qan qaraciyərdə təmizlənir. Yəni, bir orqanizmin qoruyucu funksiyası normal olmadıqdan sonra o sağlam sayılmır.



Bir qadın gələcəyin anası deməkdir. O özü sağlam olmadıqdan sonra, dünyaya gətirdiyi uşaqda da ciddi sağlıq problemləri olacaq.

***Ayşən Vəli***

# "Laçının işğalı Azərbaycan xalqına əsl xəyanət idi"

**"Laçın ölkəmizin böyük potensiala malik olan rayonlarından biridir. Azərbaycanın turizm potensiallı rayonu olan Laçının 28 illik işğal dövründə infrastukturu ermənilər tərəfindən tamamilə dağıdılıb. Bu gün Azərbaycan dövləti Qarabağa yenidən həyat bəxş edir. Ölkəmiz öz torpaqlarını dirçəldib, əsl sakinlərinin təhlükəsiz şəkildə yaşamasını təmin edəcək". Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib.**

Onun sözlərinə görə, 1992-ci il mayın 8-də Şuşa şəhəri ermənilər tərəfindən işğal olunduqdan sonra Ermənistan Silahlı Qüvvələri üçün Laçın rayonunun işğalına yol açılır: "Həmin dövrdə Laçından və ətraf rayonlardan çıxarılan Azərbaycan Silahlı Qüvvələrinin əksər bölmələri Bakıdakı siyasi qarşıdurmalara cəlb olunurdu. Yəni paytaxtdakı silahlı aksiyalara qoşulan ordu cəhbə bölgələrindəki mövqelərimizi nəzarətsiz qoymuşdu".




Müşfiq Cəfərov sözlərinə belə davam edib: "Nəticədə, ardıcıl işğal olunan rayonlarımızın sırasına Laçın da qoşuldu. Əhəmiyyətli geostrateji mövqeyə malik Laçının işğalı Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurdu. Demək olar ki, Laçının işğalı Azərbaycan xalqına əsl xəyanət idi. Məqsədli şəkildə daxildə qarşıdurmalar yaradılırdı".

***Ayşən Vəli***

**Forma № 1S**

**SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MÜHASİBAT BALANSI (rüblük və illik)**

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı: Zaman Sığorta və Təkrarsığorta üzrə Broker MMC

Hesabat dövrü: 01 Yanvar 2022 - 31 Dekabr 2022

*manatla*

| | A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| | **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| A1 | **Torpaq, tikili və avadanlıqlar** | 289,086.00 | 279,754.00 |
| A2 | **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| A3 | **Daşınmaz əmlaka investisiyalar** | | |
| A4 | **Qeyri-maddi aktivlər** | 1,418,494.00 | 1,346,426.00 |
| A5 | **Təxirə salınmış vergi aktivləri** | 24,724.00 | 38,129.00 |
| A6 | **Uzunmüddətli debitor borcları** | | |
| A7 | **Uzunmüddətli maliyyə aktivləri:** | | |
| A8 | dövlət qiymətli kağızları | | |
| A9 | qeyri-dövlət qiymətli kağızları | | |
| A10 | sair maliyyə aktivləri | | |
| A11 | **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | 4,900.00 | 50,450.00 |
| A12 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| A13 | **Sair aktivlər** | | |
| B1 | ***Cəmi uzunmüddətli aktivlər*** | 1,737,204.00 | 1,714,759.00 |
| | **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| C1 | **Ehtiyatlar** | 2,285.00 | 2,285.00 |
| C2 | **Debitor borcları:** | 1,616,368.00 | 21,914,988.00 |
| C3 | birbaşa sığorta üzrə | 103,498.00 | 100,295.00 |
| C4 | **təkrarsığorta əməliyyatları üzrə :** | 1,453,945.00 | 20,545,995.00 |
| C5 | - təkrarsığortaçı üzrə | 1,042,468.00 | 22,379.00 |
| C6 | - təkrarsığortalı üzrə | 411,477.00 | 20,523,616.00 |
| C7 | asılı təşkilatlar üzrə | | |
| C8 | büdcə üzrə | | |
| C9 | iddia tələbləri üzrə | | |
| C10 | işçi heyəti üzrə | | |
| C11 | sığortalılara verilən borclar üzrə | | |
| C12 | sair debitorlar | 58,925.00 | 1,268,698.00 |
| C13 | **Pul vəsaitləri və onların ekvivalentləri:** | 403,614.00 | 737,665.00 |
| C14 | kassa | 341.00 | 270.00 |
| C15 | hesablaşma hesabı | 70,543.00 | 59,954.00 |
| C16 | valyuta hesabı | 315,730.00 | 660,441.00 |
| C17 | depozit hesablar | 17,000.00 | 17,000.00 |
| C18 | sair pul vəsaitləri | | |
| C19 | **Qısamüddətli maliyyə aktivləri:** | | |
| C20 | dövlət qiymətli kağızları | | |
| C21 | qeyri-dövlət qiymətli kağızları | | |
| C22 | sair maliyyə aktivləri | | |
| C23 | **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | | |
| C24 | həyat sığortası sahəsi üzrə | | |
| C25 | qeyri-həyat sığortası sahəsi üzrə | | |
| C26 | **Sair qısamüddətli aktivlər:** | 28,218.00 | 36,919.00 |
| C27 | gələcək hesabat dövrlərinin xərcləri | 5,031.00 | 13,683.00 |
| C28 | verilmiş avanslar | 18,214.00 | 23,236.00 |
| C29 | təhtəl hesablar | 4,973.00 | |
| C30 | **Sair aktivlər** | 4,732.00 | 4,732.00 |
| D1 | ***Cəmi qısamüddətli aktivlər*** | 2,055,217.00 | 22,696,589.00 |
| E1 | **CƏMİ AKTİVLƏR** | 3,792,421.00 | 24,411,348.00 |

| | K A P İ T A L V Ə Ö H D Ə L İ K L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|---|
| | **I . KAPİTAL** | | |
| F1 | **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 250,000.00 | 250,000.00 |
| F2 | **Emissiya gəliri** | | |
| F3 | **Geri alınmış kapital (səhmlər)** | | |
| F4 | **Kapital ehtiyatları:** | | |
| F5 | yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| F6 | digər kapital ehtiyatları | | |
| F7 | **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | 1,836,223.00 | 2,583,494.00 |
| F8 | Hesabat dövründə xalis mənfəət (zərər) | 443,377.00 | 1,417,271.00 |
| F9 | Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| F10 | Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 1,392,846.00 | 1,166,223.00 |
| F11 | Elan edilmiş dividendlər | | |
| G1 | ***Cəmi kapital*** | 2,086,223.00 | 2,833,494.00 |
| | **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| H1 | **Sığorta ehtiyatları:** | | |
| H2 | Həyat sığortası sahəsi üzrə : | | |
| H3 | Qeyri-həyat sığortası sahəsi üzrə: | | |
| H4 | **Qarşısıalınma tədbirləri fondu** | | |
| H5 | **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| H6 | **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| H7 | **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| H8 | **Kreditor borcları :** | | |
| H9 | əməyin ödənilməsi üzrə | | |
| H10 | büdcə üzrə | | |
| H11 | sosial sığorta və təminat üzrə | | |
| H12 | digər məcburi ödənişlər üzrə | | |
| H13 | asılı təşkilatlar üzrə | | |
| H14 | sair kreditorlar | | |
| H15 | **Sair uzunmüddətli öhdəliklər:** | | |
| H16 | gələcək hesabat dövrünün gəlirləri | | |
| H17 | alınmış avanslar | | |
| H18 | **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | | |
| H19 | təkrarsığortaçı üzrə | | |
| H20 | təkrarsığortalı üzrə | | |
| H21 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| H22 | **Sair öhdəliklər** | | |
| I1 | ***Cəmi uzunmüddətli öhdəliklər*** | | |
| | **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| J1 | **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| J2 | **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| J3 | **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| J4 | **Kreditor borcları:** | 668,575.00 | 18,590,458.00 |
| J5 | əməyin ödənilməsi üzrə | | |
| J6 | büdcə üzrə | 13,855.00 | 204,625.00 |
| J7 | sosial sığorta və təminat üzrə | | |
| J8 | digər məcburi ödənişlər üzrə | | |
| J9 | asılı təşkilatlar üzrə | | |
| J10 | sair kreditorlar | 654,720.00 | 18,385,833.00 |
| J11 | **Sair qısamüddətli öhdəliklər:** | 1,037,623.00 | 2,987,396.00 |
| J12 | gələcək hesabat dövrünün gəlirləri | 1,037,623.00 | 2,987,396.00 |
| J13 | alınmış avanslar | | |
| J14 | **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| J15 | **Sair öhdəliklər** | | |
| K1 | ***Cəmi qısamüddətli öhdəliklər*** | 1,706,198.00 | 21,577,854.00 |
| L1 | ***CƏMİ ÖHDƏLİKLƏR*** | 1,706,198.00 | 21,577,854.00 |
| M1 | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 3,792,421.00 | 24,411,348.00 |
| N1 | Qeyd : Ödənilməsinə zəmanət verilmiş məbləğlərin cəmi* | | |

* Bu sətrlər üzrə məlumatlar balansa daxil edilmir.

**Rəhbər: Əhmədov Şahin Müseyib oğlu**

**M.Y.**

**Baş mühasib : Əfəndizadə Tutu Fuad qızı**

**Forma № 2S**

**SIĞORTAÇININ (TƏKRARSIĞORTAÇININ) və HÜQUQİ ŞƏXS SIĞORTA BROKERİNİN MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT (rüblük və illik)**

Sığortaçının (təkrarsığortaçının ) və ya sığorta brokerinin adı: "Zaman Sığorta və Təkrarsığorta üzrə Broker" MMC
Hesabat dövrü: 01 Yanvar 2022 - 31 Dekabr 2022
*ilin əvvəlindən artan yekunla*

*manatla*

| | Gəlirlər | Məbləğ |
|---|---|---|
| A1 | **Əsas əməliyyat gəliri:** | |
| A2 | birbaşa sığorta üzrə sığorta haqları | |
| A3 | təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| A4 | sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | |
| A5 | təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | |
| A6 | **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | |
| A7 | **İnvestisiya gəlirləri üzrə** | |
| A8 | **Subroqasiya gəlirləri** | |
| A9 | **Sair gəlirlər** | 3,570,167.00 |
| B1 | **CƏMİ GƏLİRLƏR** | **3,570,167.00** |
| | **Xərclər** | |
| C1 | **Əsas əməliyyat xərcləri:** | |
| C2 | sığorta ödənişləri və sığorta məbləğləri üzrə | |
| C3 | qaytarılan sığorta haqları üzrə | |
| C4 | tənzimləmə xərcləri | |
| C5 | təkrarsığortaya verilmiş sığorta haqları üzrə | |
| C6 | qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| C7 | sığorta fəaliyyəti üzrə sair xərclər | |
| C8 | **İşlərin aparılması xərcləri** | 1,802,909.00 |
| C9 | **Sair xərclər** | |
| D1 | **CƏMİ XƏRCLƏR** | **1,802,909.00** |
| E1 | **Maliyyə mənfəəti (zərəri)** | 1,767,258.00 |
| E2 | **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| E3 | **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 1,767,258.00 |
| E4 | **Mənfəət vergisi** | 349,987.00 |
| E5 | **Hesabat dövründə xalis mənfəət (zərər)** | 1,417,271.00 |

**Rəhbər: Əhmədov Şahin Müseyib oğlu**________________________________________

**M.Y.**

**Baş mühasib : Əfəndizadə Tutu Fuad qızı**__________________________________

# Əmək bazarı insanlardan daha çox nə tələb edir?



*EKSPERT AYDINLIQ GƏTİRDİ*

"İşə qəbul zamanı bakalvr diplomlarının yetərli olması və ya magistr diplomunun zəruriliyi ilə bağlı bir şərt yoxdur. Təbii ki, magistr təhsili bakalvrdan sonrakı təhsil pilləsi sayılır və ondan bir pillə yüksək hesab olunur. Magistr həm təhsil, həm də ali təhsilin tamamlanmış pilləsidir. Bu baxımdan magistraturaya qəbul olunan tələbələr əslində bakalavrı bitirmiş tələbələrdən bilik və bacarıqlarına görə fərqlənirlər. Çünki onların əlavə olaraq iki il daha ali təhsil müəssisələrində təhsil almaları təsadüfi deyil. Bu müddət ərzində bilik və bacarıqlarını daha da artırmış olurlar". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru İlqar Orucov bildirib.

Onun sözlərinə görə, ölkədə hər bakalavrı bitirən magistrdə təhsil ala bilməz: "Magistraturaya qəbul olan tələbələr adətən bakalavrda əla nəticə ilə bitirənlər olur.

İşə qəbul zamanı söhbət dövlət qulluğundan gedirsə, burada təbii ki, bilik və bacarıqları daha çox olan şəxslər müvəffəqiyyət qazanırlar. Eyni zamanda müsahibə mərhələsində də əlavə bilik və bacarıqlara ehtiyac duyulur. Bu prosesdə isə magistrdə təhsil alan gənclərin uğur qazanma ehtimalı daha çoxdur. Təbii ki, seçim arasında qaldıqda mütləq şəkildə magistrın qazanacağı ilə bağlı fikir söyləmək də düzgün deyil. Çünki bu zaman bilik və bacarığı daha çox olana üstünlük veriləcəkdir. Eyni zamanda burada fərdin bildiklərini daha yaxşı nümayiş etdirə bilməsi də mühüm rol oynayır. Əmək bazarı insanların daha çox bilik və bacarıqlara sahib olmasını tələb edir".

***Səbinə Hüseynli***

# Formula 1 yarışları turizmə necə təsir edir?



*TURİZM EKSPERTİ DANIŞDI*

"Artıq Azərbaycanda Formula 1 yarışları bir neçə dəfədir ki, təşkil olunur. Bilirik ki, bütün təqvim ili boyunca dünyanın müxtəlif bölgələrində Formula 1 yarışları keçirilir. Formula 1 yarışlarının öz azərkeş kütləsi var. Bu azərkeşlər tədbirin harada keçirilməsindən asılı olmayaraq həmin ölkəyə səfər edirlər. Yarışın keçirildiyi bölgə haqqında internet resurslarında geniş məlumat yazılır və azərkeşlər də həmin ölkə haqqında məlumatlanırlar". Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Ceyhun Aşurov deyib. Onun sözlərinə görə, Formula 1 yarışlarının Azərbaycanda keçirilməsi ölkədə marketinqlə bağlı addımlar atılmasına, turizm məkanı kimi tanıdılmasına və seqmentə müraciət etməklə həmin azərkeşlərin gələcəkdə də bura turist kimi səyahət etməsinə şərait yaradır: "Bu kimi geniş auditoriyası olan tədbirlərin keçirilməsi ilk növbədə ölkənin imici və turist axını üçün müsbət bir addımdır. Artıq əvvəlki illərlə müqayisədə ölkənin beynəlxalq aləmə tanıdılması ilə bağlı ciddi işlər görülüb.

Əlbəttə ki, bu kimi yarışlar, beynəlxalq tədbirlərin keçirilməsi Azərbaycana maksimum dərəcədə fayda verir. Azərbaycan Formula 1 yarışlarından düzgün istifadə etməli, onun geniş kütləsinə lazımi ismarıcları çatdırmağı bacarmalıdır. Bu yarışla nəinki bura gələnlər, eyni zamanda ekran qarşısında da Azərbaycan geniş bir auditoriya qarşısına çıxır. Biz gələcək potensial turistlərimizə real və virtual vasitələrlə ölkəmizi turizm destinasiyası kimi tanıtmalı və Azərbaycana səyahət üçün onların diqqətini cəlb etməliyik"

***Ləman Əlizadə***

# XX əsrin ən böyük soyqırımı: 105 il əvvələ baxış

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti çərçivəsində hazırlanıb*

**Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi Mart soyqırımından 105 il ötür. 1918-ci il mart-aprel aylarında həyata keçirilən soyqırım zamanı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağ, Naxçıvan, Zəngəzur və Lənkəranda on minlərlə azərbaycanlı xüsusi amansızlıqla qətlə yetirilib, yüz minlərlə insan öz yurd-yuvasından qovulub.**






Erməni daşnak qüvvələrinin Bakıda həyata keçirdiyi qırğınlar zamanı 30 mindən çox dinc sakin öldürülüb. Şamaxı qəzasında 58, Qubada 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qarsda 92 kənd yerlə-yeksan edilib. Ermənilər Şamaxı ərazisində 7 mindən artıq insanı, o cümlədən 1653 qadını və minə yaxın uşağı qətlə yetiriblər.

İrəvan quberniyasında isə öldürülən azərbaycanlıların sayı 130 min nəfərdən çox olub. Erməni hərbi birləşmələri minlərlə dinc azərbaycanlını yalnız milli mənsubiyyətinə görə məhv edib, evlərə od vurub, insanları diri-diri yandırıb, milli memarlıq abidələrini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıdıb, Bakının böyük bir hissəsini xarabalığa çeviriblər.

30 Mart axşam saat 5-də Bakıda ilk atəş səsləri eşidildi. Yaxşı silahlanmış və hazırlıqlı erməni əsgərləri azərbaycanlıların evlərinə basqınlar edərək onları öldürür, körpələri xənçərlə qətl edir, uşaqları alovlar içinə atırdılar. Qadınlar daha ağır şəkildə öldürülürdülər. Arxiv materiallarına görə qulaqları, burunları kəsilən, orqanları parça-parça edilən 37 qadının meyidi tapılmışdı.

Mir Cəfər Pişəvəri öz xatirələrində yazır: "Mən 1918-ci ilin martında erməni daşnaklarının vəhşiliklərini, günahsız adamların öldürülüb, meyidlərin yandırılmasını öz gözlərimlə gördüm. Bu çox nifrət ediləcək bir hərəkətdir".

N.Nərimanov erməni vəhşilərinin törətdikləri qətliamlar haqqında qeyd edir: "Bolşevik olan bir türkə belə aman verilmədi. Daşnaklar- "bolşevikliyinizi tanımırıq, bir halda ki, türksünüz- bu yetər" deyirdilər. Bolşevik adı altında türklərə qarşı hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar bunlardan canlarını qurtara bilmədilər. Müxtəlif rəqəmlər söylənilir- 10 min, 15 min... amma ingilis mənbələrində göstərilir ki, ermənilər tərəfindən həmin ilin martında təkcə Bakıda 25 min nəfər qətlə yetirilib.

Bu soyqırım təkcə Bakıyla əhatəli deyildi. Aprel ayının ilk on günlüyündən etibarən Bakıda törədilən bu qətliamlar eynilə Şamaxı, Quba-Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər bölgələrdə də edildi.

Ermənilərin 1918-ci il mart və aprel aylarında Şamaxı və ona qonşu kəndlərdə törətdikləri qətliamları isbat edən çoxlu sayda arxiv materialı var. Bu materiallar arasında 22 noyabr 1918-ci ildə Təcili Araşdırma Komissiyasının başçısı A.Xasməmmədovun Azərbaycan Respublikası Ədliyyə Nazirliyi başçısına Şamaxı şəhəri və ona qonşu kəndlərin dağıdılması və azərbaycanlılar üzərində ermənilərin işgəncələri və cinayətləri haqqında məlumatını, həmin komissiyanın üzvü A.Novatskinin bu məsələylə bağlı komissiya başçısına verdiyi məlumatı, bu işlərdə cinayətkar şəxslərlə bağlı məhkəmə işinin başladılması haqqında Təcili Araşdırma Komissiyasının 12 iyul 1919-cu il tarixli qərarı göstərmək olar.





Şamaxı şəhəri və ona qonşu olan kəndlərdə ermənilər tərəfindən törədilən soyqırım hadisələri haqqında 7 cild, 925 səhifədən ibarət araşdırma materiallarında toplanmış məlumatlar ermənilərin cinayət və qətliamlar etdiklərini bir daha göstərir.

Arxivlərdə göstərilir: "...Uşaq və qadınların böyük bir hissəsi məsciddə gizləndi. Tanınmış Axund Molla Cəfərqulu öldürüldü. Hər kəs Axunda bir şey edilməyəcəyini, ona əl qaldırılmayacağını fikirləşirdi. Amma ermənilər məscidə girərək Axundu tapdılar. Onun gözlərini çıxarıb, dilini, burnunu və qulaqlarını kəsdilər. Məsciddəki bütün qadınlar öldürüldü".

Şamaxıda təxminən 8 minə yaxın insan öldürüldü ki, bunun da 1653 nəfəri qadın, 965-i isə uşaqdı. 1918-ci ildə 15 min əhalisi olan Şamaxının 1921-ci ildə əhalisi təxminən 1701 nəfərə enmişdi.

Yuxarıda da qeyd etdiyimiz kimi, bu kütləvi soyqırım hadisələri təkcə Bakı və Şamaxıda deyil, Azərbaycanın demək olar ki, bütün bölgələrində həyata keçirilmişdi. Quba qəzasına göndərilən erməni silahlı birləşmələri tərəfindən 122 kənd dağıdılmış, müxtəlik xalqlardan olan yüzlərlə insan qətlə yetirilmişdi. Ermənilərin Qubada törətdikləri qətliamlar haqqında həmin dövrdə şəhərin rəisi olmuş A.Əlibəyov yazır: "Ermənilər şəhəri tərk etdikdən sonra mən şəhərə dəyən maddi zərəri dəyərləndirdim və eyni zamanda bir neçəsi uşaq və qadın olmaq üzərə 2000-dən çox türkün qətl edildiyini araşdırdım".




Ermənilər təkcə Naxçıvanda 1919-cu ildə 4000, 1920-ci ildə 64408, həmin il daha 5307, 1921-ci ildə isə 12 azərbaycanlını qətlə yetiriblər.

Azərbaycan Cümhuriyyəti dövründə Nazirlər Şurası bu soyqırım faktının araşdırılması üçün fövqəladə istintaq komissiyası yaradıb. Komissiya insanlığa qarşı törədilən bu ağır cinayətləri araşdırıb. Bu faktların dünya ictimaiyyətinə çatdırılması üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılıb.

Ümumilikdə, 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Lənkəran və digər ərazilərdə erməni faşistləri 50 min azərbaycanlını qətlə yetirmiş, on minlərlə insanı öz torpaqlarından qovublar. XX əsrin sonlarında ermənilər Azərbaycan xalqına qarşı yeni soyqırım aktı həyata keçirdilər. Xocalı qətliamı bəşər tarixində ən dəhşətli soyqırım aktı kimi artıq tarixə düşdü.

İndi dünyaya yalançı erməni soyqırımı nağıllarını qəbul etdirmək istəyən ermənilər bu tarixi faktlar qarşısında aciz qalırlar. Azərbaycan və qonşu ölkələrin arxivlərində ermənilərin azərbaycanlılara qarşı törətdikləri dəhşətli soyqırım haqda minlərlə fakt və sənədlər var. Bunlar ermənilərin iç üzünün açılması və dünya qarşısında ifaşı üçün tam kifayət edir.

Azərbaycan tərəfindən bu tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində həyata keçirilən işlər artıq dünya ictimaiyyətinin əsil tarixi həqiqətlərlə tanış olması üçün gözəl şans yaradıb.

Ümumilli lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli sərəncamı ilə 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü elan edilib. 31 Mart- Azərbaycanlıların soyqırımı günü ilə bağlı ölkəmizlə yanaşı dünyanın müxtəlif ölkələrində də tədbirlər keçirilir.

***Elçin Bayramlı***

## Məşhur musiqiçi Formula 1 üçün Bakıya gələcək




Məşhur musiqiçi, prodüser, elektronik rəqs musiqisi bəstəkarı DJ Don Diablo aprelin 28-də Dənizkənarı Milli Parkda Formula 1 Azərbaycan Qran-Prisinin açılışını edərək öz yüksək templi canlı şousunu sərgiləyəcək. Bakı yarışı əyləncəsevərləri daha bir gözlənilməz konsert proqramı ilə sevindirəcək. Həmyerlisi DJ Hardwell ilə yanaşı, Don Diablonun da çıxış edəcək ulduzların siyahısına əlavə edilməsi F-1 azarkeşlərinə Bakıda daha bir unudulmaz həftəsonu yaşadacaq. Formula 1 Azərbaycan Qran-Prisinin təşkilatçısı Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən (BŞH) AZƏRTAC-a bildiriblər ki, dünyada böyük rəğbət görən prodüser Dua Lipa, Castin Biber, Rihanna, Madonna və digər meqa ulduzlar ilə əməkdaşlıq edib.

Niderlandlı DJ 2015-ci ildə özünün musiqi şirkətini qurub və bununla da gənc istedadların üzə çıxarılmasına öz töhfəsini verib. Digər sahələrdə özünü sınamaqdan çəkinməyən DJ, həmçinin öz dizaynı olan geyim brendinin də sahibidir. Onun digər yaradıcı layihələri arasında eyniadlı yarı avtobioqrafik, elmi-fantastik xarakter daşıyan karikatura seriyası da var.

# Oruc tutan şəxsə hansı əməllər qadağandır?



Bu əməllərin sayı 9-dur. SİA bu barədə Tükiyə saytlarına istinad edir. Oruc tutan şəxs sübh azanı verilən andan axşam azanına kimi müddət ərzində bir neçə əməldən çəkinməlidir. Bu əməllərin sayı 9-dur. Hər kim qəsdən bu əməllərdən birini etsə, orucu batil olar:

1. Yeyib-içmək. İstər az, istərsə çox, istər bərk, istərsə maye, istər yeyilən, istərsə yeyilməyən (hətta zərərli) hər hansı qidanı qəbul etmək orucu pozar. Diqqət yetirin ki, dişlərin dibində qalmış yemək qırıntılarını da udmaq olmaz.

2. İstər kişi, istərsə də qadın cinsi əlaqədə olarsa, tutduğu oruc pozular.

3. İnsan heç cinsi əlaqəyə girmədən, özündən cinsiyyət mayesini xaric edərsə (hər hansı üsulla olursa-olsun), orucu batil olar. Amma cinsiyyət mayesi qeyri-ixtiyari olaraq (məsələn, yuxuda) çıxsa, oruc düzgün sayılır.

4. Hər cür qatı toz və tüstünü udmaq. Məsələn, narın un tozu, siqaret tüstüsü, su buxarı və s. qatı halda olarsa, onları udmaq qadağandır.

5. İnsan qəsdən qusarsa, orucu batil olar. Əlbəttə, qeyri-ixtiyari olaraq və ya xəstəlik nəticəsində qusmaq istisna olunur.

6. Bədənə imalə etdirməklə oruc pozular.

7. Kişi, yaxud qadın cinsi əlaqədən sonra sübh azanına kimi qüsl etməsə, orucu batil olar. Belə ki, oruc tutan şəxsin çöhdəsində qüsl qalmamalıdır. Həmçinin, qadınlar onlara məxsus paklıq qüslünü sübh azanına kimi yerinə yetirməsələr, həmin günün orucu batil sayılır.

8. İnsan qəsdən Allahın, peyğəmbərlərin və imamların adından yalan danışsa, yəni Quran ayələrini bilə-bilə səhv oxusa, yalan hədislər söyləsə, orucu batil olar. Çünki oruclnq paklıq və Allah tabe olan adama isə yuxarıdakı əməllər yaraşmaz.

9. Suya baş vurmaqla da oruc pozular. Diqqət yetirin ki, yalnız baş bütövlükdə suya batırılsa, oruc batil olar. Amma əgər insan başını suya salmadan yuyunsa, orucu düzgün sayılır.

## "Bakcell"dən iPhone istifadəçilərinə xəbər!




**5G şəbəkəsi indi iPhone smartfonlarından istifadə edən Bakcell abunəçiləri üçün aktivdir. iPhone istifadəçiləri Bakının bir neçə nöqtəsində qurulmuş 5G test şəbəkəsindən yararlanaraq ultrasürətli interneti sınaqdan keçirmək imkanına malikdir. 5G şəbəkəsinə qoşulan iPhone istifadəçiləri "Bakcell"dən 5GB balans hədiyyə alacaq. Hədiyyə interneti almaq üçün 5G-nin mövcud olduğu ərazilərdə olarkən telefonda *501*1# kodunu yığmaq lazımdır.**

**Qeyd edək ki, Bakcell Azərbaycanda eSIM və VoLTE texnologiyalarını tətbiq edən ilk mobil operatordur. Bakcell şəbəkəsi Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınır. Bakcell şirkəti "NEQSOL Holding"in tərkibinə daxildir.**



## 2023-2026-cı illərdə 11 yeni regional DOST Mərkəzi açılacaq

**Ötən ilin dekabrında 5 saylı Bakı DOST Mərkəzinin açılışı ilə paytaxt və Abşeron rayonu DOST xidmətləri ilə tam əhatə olunub. 2023-2026-cı illərdə 11 yeni regional DOST Mərkəzinin, həmçinin 55 DOST filialının və SMART DOST məntəqələrinin yaradılması planlaşdırılır. Bu barədə DOST Agentliyinin Müşahidə Şurasının növbəti iclasında bildirilib.**

**Şuranın sədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin Fərmanı ilə 2019-cu ilin may ayında DOST Agentliyi və bundan sonra 6 DOST mərkəzinin açıldığını, regional DOST infrastrukturunun qurulması sahəsində işlərin davam etdirildiyini diqqətə çatdırıb. O, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyasının sosial sahələr üzrə 154 xidmətin "bir pəncərə"dən, operativ, şəffaf, müasir və innovativ əsasda təqdim olunmasına imkan verdiyini vurğulayıb.**

# Əhaliyə XƏBƏRDARLIQ olundu: hava kəskin dəyişəcək!



Fövqəladə Hallar Nazirliyi gözlənilən hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib. SİA nazirliyin saytına istinadən xəbər verir ki, müraciətdə deyilir: "Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, martın 30-dan başlayaraq aprelin 1-i axşamadək ölkə ərazisində hava şəraitinin kəskin dəyişərək qeyri-sabit keçəcəyi, güclü külək əsəcəyi, yağıntılı olacağı, yağıntıların bir sıra ərazilərdə intensiv olacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Qeyd olunanlarla bağlı Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, gözlənilən hava şəraiti ilə əlaqədar müvafiq təhlükəsizlik qaydalarına riayət etməyə çağırır.

Belə ki, güclü külək zamanı yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur. Həmçinin, güclü küləyin baş verən yanğınların söndürülməsi ilə əlaqədar yaratdığı çətinlikləri nəzərə alaraq, küləkli hava şəraitində yanğın təhlükəsizliyi qaydalarına xüsusilə ciddi riayət edilməlidir.

Bundan əlavə, yağıntılarla əlaqədar bəzi dağ çaylarında mümkün sel və daşqından qorunmaq üçün sel və daşqın təhlükəli ərazilərdən uzaq durmaq, bu təhlükə ilə üzləşdikdə dərhal yaxınlıqdakı yüksəkliyə qalxmaq tövsiyə olunur.

Həmçinin, ildırımla bağlı təhlükələrdən qorunmaq üçün elektrik cihazlarını şəbəkədən ayırmaq, telefonla (sabit şəbəkə, mobil, taksofon və s.) danışmamaq, açıq havada olarkən elektrik xətti, ildırım ötürücüsü, navalça və antenaya yaxınlaşmamaq, hündür ağacların altında daldalanmamaq və bu məqsədlə nisbətən çökək yer seçmək, avtomobildə olduqda isə hərəkəti dayandıraraq şüşələri qaldırıb ildırımın bitməsini gözləmək tövsiyə edilir.

## Gədəbəydə qadın ərinin meyitini tapıb

Gədəbəydə qadın ərinin meyitini tapıb. SİA xəbər verir ki, İnəkboğan kənd sakini İsmayılova Nəzakət Fərman qızı əkin sahəsindən qayıdarkən yaşadığı evin birinci mərtəbəsinin qarşısında onunla eyni evdə yaşamış, mütəmadi spirtli içkilər qəbul etməklə tüfeyli həyat tərzi keçirmiş əri, 1968-ci il təvəllüdlü İsmayılov Fazil İsmayıl oğlunun meyitini aşkar edib.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**